Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 100 (8123) ÇƏRŞƏNBƏ, 8 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Prezident İlham Əliyev bölgələrdə bütün infrastruktur məsələlərinin həll olunacağını bəyan etdi



## Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov rayonda görülən işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

## Qobustan rayonunun Sündü kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qobustan rayonunun Sündü kəndində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2019-cu il*

## Ən yüksək standartlara cavab verən müasir tibb ocağı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Səhiyyə naziri Oqtay Şirəliyev görülən işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, Qobustan Rayon Mərkəzi Xəstəxanasının fəaliyyət göstərdiyi bina 1965-ci ildə Mərəzə Qəsəbə Xəstəxanası qismində istifadəyə verilib və 1991-ci ildən isə Qobustan Rayon Mərkəzi Xəstəxanası kimi fəaliyyət göstərib. Rayon mərkəzi xəstəxanası üçün yeni binanın tikintisinə 2014-cü ildə başlanılıb. İnşaat işləri 2018-ci ildə başa çatdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, 90 çarpayılıq Qobustan Rayon Mərkəzi Xəstəxanasının inşası müasir səviyyədə və yüksək keyfiyyətlə həyata keçirilib. Xəstəxananın ümumi ərazisi 2,6 hektardan çoxdur. Burada əsas korpusla yanaşı, terapiya və təcili-tibbi yardım binası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Qobustan Rayon Şöbəsinin binaları inşa olunub. Xəstəxanada əsasən Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyədən alınan müasir tibbi avadanlıq quraşdırılıb. Bu avadanlığın hər biri istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Xəstəxanada cərrahiyyə, terapiya, təcili tibbi yardım, doğum və ginekologiya, uşaq xəstəlikləri, poliklinika, infeksiya xəstəlikləri, şüa-diaqnostika (radiologiya), reanimasiya və digər şöbələr fəaliyyət göstərəcək. Laboratoriyada müayinələri yüksək dəqiqliklə və qısa müddətdə aparmaq üçün hərtərəfli şərait var. Hazırda xəstəxanada 26 həkim və 51 orta tibb işçisi çalışır.

Qobustan Rayon Mərkəzi Xəstəxanasında yaradılan şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir tibb müəssisələrinin yaradılması, mövcud tibb ocaqlarının yüksək səviyyədə yenidən qurulması istiqamətində olduqca vacib layihələr icra edilir.

*Ardı 2-ci səh.*



## İlham Əliyev yeni inkişaf strategiyası üçün çox mühüm tələblər müəyyən edib

“Strateji yol xəritələrinin iki il ərzində icrası 52 faiz təşkil edir. Bu, deməyə əsas verir ki, bu önəmli proqram 2020-ci ilin sonuna qədər icra ediləcək və beləliklə, biz bütün sahələrdə irəliləyişə nail olacağıq. Çünki artıq məruzə edilən məsələlər göstərir ki, hər bir sahə üzrə çox ciddi addımlar atılır. Büdcə gəlirlərimiz artır, makroiqtisadi vəziyyət sabitdir, islahatlar öz nəticəsini verir, biznes mühiti yaxşılaşır. Yəni, biz bütün sahələrdə islahatların uğurlu nəticələrini görürük”.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışında strateji yol xəritələrinin icrasına toxunan Prezident İlham Əliyev bu sənədlərdə nəzərdə tutulan bütün istiqamətlər üzrə layihələrin uğurla sonuclanmasından sonra 2021-2025-ci illəri əhatə edən yeni proqramın hazırlanacağını vurğuladı. Bəlli oldu ki, hökumət iqtisadiyyatın yeni inkişaf strategiyası üzərində işləyir.

Ümumiyyətlə, 2016-cı ildə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi, eləcə də milli iqtisadiyyat və 11 sektor üzrə strateji yol xəritələrinin hazırlanaraq qəbul edilməsi ölkədə həyata keçirilən iqtisadi islahatların daha da dərinləşdirilməsinə və sistemli xarakter almasına xidmət edib.

2020-ci ilin sonuna qədər, yeni strateji yol xəritələrinin icrası üçün cəmi 20 ay qalıb və bu dövr ərzində dövlət və hökumət qurumları qarşısında çox mühüm tələblər, tapşırıqlar durur. Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov qeyd edib ki, bu müddət ərzində biznes mühiti və rəqabət məcəlləsinin qəbulu ən əhəmiyyətli məsələlərdəndir. Dövlət başçısının tapşırığına əsasən bu iki il ərzində rəqabət məcəlləsinin qəbulu prosesi başa çatmalıdır. Ortamüddətli xərclər çərçivəsinə keçid təmin edilməli, korporativ idarəetmə standartları təsdiq olunmalı, özəl investisiyaların cəlbi artırılmalıdır.

Yol xəritələrinin icra prosesinin hansı durumda olduğuna gəldikdə isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilən monitorinqin nəticələrinə nəzər yetirmək kifayətdir. Belə ki, monitorinqə əsasən strateji yol xəritələrinin ümumi icrası nəzərdə tutulan 50 faizə qarşı 52 faiz təşkil edib ki, bu da icra qrafikini qabaqlamaqla icranın sürətləndirilməsi anlamına gəlir. Yəni ayrı-ayrı qurumların fəaliyyətinə nəzər yetirdikdə bütövlükdə bütün qurumlar 50 faiz üçün nəzərdə tutulan həddə çatıb.

Ancaq Biznes Mühiti və Beynəlxalq Reytinq üzrə Komissiya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Vergilər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi strateji yol xəritələrində onlar üçün müəyyən edilmiş tədbirlərin icrasını, demək olar ki, tam şəkildə həyata keçiriblər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”nin növbəti monitorinq və qiymətləndirmə nəticələrinə əsasən yol xəritələri üzrə fəaliyyətlərin 43 faizi icra edilib, 9 faizi qismən icra olunub və 48 faizinin icrası isə gözlənilir.

Ayrı-ayrı strateji yol xəritələrinin icra vəziyyəti:

*- Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin 47 faizi icra edilib, 8 faiz qismən icra edilib və 45 faizin icrası gözlənilir;*

*- Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsinin 64 faizi icra edilib, 8 faiz qismən icra edilib və 28 faizin icrası gözlənilir;*

*- Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsinin 50 faizi icra edilib, 8 faizi qismən icra edilib və 42 faizin icrası gözlənilir;*

*Ardı 9-cu səh.*

## Azərbaycanın özü qədər əbədi

## 50 illik şanlı salnamə

İnkişaf, quruculuq, müstəqillik, milli dövlətçilik dövrü və ən nəhayət, tarixin ən qüdrətli Azərbaycanı

Seçim anı hər bir xalq üçün əlverişli tarixi imkan və şansdır. Geri dönüşü olmayan bu fürsətdən düzgün bəhrələnməyi bacaran xalqlar gələcək tale yollarını düzgün müəyyənləşdirə bilirlər. Hər bir millətin taleyinə sahib çıxmaq hüququnun təməlində də məhz vətəndaşların ölkəyə layiqli rəhbər seçmək haqqı dayanır. Müstəqil dövlət olaraq ötən 26 il ərzində qazandığımız inqilabi nailiyyətlər də, əslində, məhz müdrik seçimin nəticəsidir.

Uzağa getməyək, cəmi bir il əvvəl - 2018-ci ilin 11 aprelində keçirilmiş prezident seçkiləri Azərbaycan xalqının siyasi uzaqgörənliyinin növbəti əyani nümunəsi kimi tariximizə yazıldı. Düşünürəm ki, bu seçkilər, sadəcə, Azərbaycanın siyasi taleyini müəyyənləşdirən Heydər Əliyev siyasi xəttinin növbəti zəfəri olmadı. Bu proses həm də qədirbilən xalqımızın gələcəyinə qətiyyən biganə olmadığını, hərtərəfli inkişaf və tərəqqi kursunu dəstəklədiyini göstərdi.

İnsanlar işıqlı gələcək - sabitlik, firavanlıq, təhlükəsizlik və rifah naminə milli iradə və təəssübkeşlik nümayiş etdirdilər. Bir daha təsdiqləndi ki, sivil toplum olaraq ağı qaradan, yaxşını pisdən ayıra bilirik: Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevin 11 aprel seçkilərində birmənalı, halal qələbəsi, əslində, sülh və sabitlik strategiyasının növbəti təntənəsi idi.

*Ardı 6-cı səh.*



## Xalqa xidmətdə keçən ömür

Öz xalqına milli müstəqillik nemətini daddıra bilən dahilər heç zaman unudulmur. Azərbaycan dövləti və dövlətçiliyinin təməlini möhkəm sütunlar üzərində quran ümummilli lider Heydər Əliyev kimi.

Dövlətçilik tarixində zamanın gedişini dəyişə bilən, onun yeni tarixini yaradan lider həlledici rol oynayır. Hər dövlət dünya tarixində tutduğu yerə görə öz tarixi liderlərinə borcludur. Müasir Azərbaycanın tarixində bu mühüm rolu, şübhəsiz, xalqımızın keçmişini bilən, onun milli-mənəvi irsinin özünəməxsusluğunu qiymətləndirən ümummilli lider Heydər Əliyev oynayıb, hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyətlərdən olan ulu öndərin anadan olmasından 96, siyasi hakimiyyətə gəlişindən 50 il ötür. Ümummilli lider fenomeni təkcə bir məkanla, Azərbaycanla məhdudlaşmır. Heydər Əliyev siyasət aləminin patriarxı, tarixin gedişinə təsir göstərmək qüdrətinə, polad iradəyə malik yenilməz şəxsiyyət kimi səciyyələndirilir.

Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Ümummilli lider Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil edib.

*Ardı 7-ci səh.*

## Çoxmədəniyyətlilik Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir

### V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bildirildi ki, Bakıda tərəfdaşlıq, əməkdaşlıq ruhu, böyük imkanlar var

Azərbaycanın dünyanı silkələyən və əslində isə hədələyən terrorizm və ekstremizmə qarşı birgə mübarizənin önündə getdiyini və bu məsələdə beynəlxalq təşkilatları bir araya gətirməsi artıq ənənə halını alıb. Beynəlxalq tədbirlərdə dəfələrlə səsləndirildiyi kimi, Bakıda tərəfdaşlıq, əməkdaşlıq ruhu, böyük imkanlar var.

Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüslər daim yeni imkanlar yaradır. Bu gün dünyada gedən proseslər, əksər hallarda narahatedici situasiyalar tələb edir ki, beynəlxalq dialoqa daha böyük diqqət yetirilsin. Dünyanın əksər ölkələrini eyni məqsəd uğrunda bir araya toplayan beynəlxalq tədbirlər bu baxımdan aktuallığı ilə seçilir. Paytaxt Bakı belə beynəlxalq tədbirlərə evsahibliy ilə diqqəti cəlb etməkdədir.

Çox da uzaq olmayan tarixə nəzər salmaqla deyə bilərik ki, terrorizmin konkret təzahürü “Ərəb baharı” inqilablarının iflası ilə başladı. Yaxın Şərq və Şimali Afrikada vətəndaş müharibələrinin şahidi olduq. Suriya, İraq, Yəmən, Somali, Sudan, Liviya, Sinay və Afrika səhrası kimi yerlərdə sözlə ifadə edilə bilməyən dəhşətlər törədildi. Əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdə, həm də İslamın ikinci din kimi qəbul edildiyi Qərbi Avropa ölkələrində Qərb və müsəlman icmaları arasındakı uçurum dərinləşir ki, bu da çox təhlükəlidir.

May ayının 2-də “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı ilə keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bəşəriyyəti narahat edən problemlərin həlli yollarının araşdırılması baxımından əhəmiyyəti çox böyükdür. Beynəlxalq təşkilatların, dünyanın nüfuzlu və aparıcı dövlətlərinin yüksəksəviyyəli rəsmilərinin iştirak etdiyi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işini iki gün ərzində müxtəlif istiqamətdə davam etdirdi.

*Ardı 9-cu səh.*

# Ən yüksək standartlara cavab verən müasir tibb ocağı





*Əvvəli 1-ci səh.*





Bütün bu işlər səhiyyə sisteminin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların mühüm tərkib hissəsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu tibb ocağının kollektivi ilə görüşdülər.

Xəstəxananın kollektivini təbrik edən **Prezident İlham ƏLİYEV** dedi:

- Belə gözəl xəstəxananın açılışı çox əlamətdar hadisədir. Sizi bu hadisə münasibətilə təbrik edirəm. Şadam ki, Qobustan rayonunda da müasir tibb ocağı yaradılıb və ən yüksək standartlara cavab verir.

Ölkəmizin hər bir yerində yeni xəstəxanalar tikilir. Son illər ərzində 640-dan çox müasir tibb müəssisəsi yaradılıb. Bunun əsas məqsədi vətəndaşlara xidmət etməkdir. Burada quraşdırılan avadanlıq, yaradılan şərait ən yüksək standartlara cavab verir. Ən qabaqcıl ölkələrdəki xəstəxanalarda hansı müasir avadanlıq varsa, burada da var. Əsas məsələ ondadır ki, xəstələrə burada çox gözəl xidmət və qayğı göstərilməlidir. Əminəm ki, siz bunu təmin edəcəksiniz. Mənə verilən məlumata görə, burada həkimlər, tibb heyəti üçün 70-dən çox iş yeri yaradılıb. Yəni, bu xəstəxananın açılması bir daha bizim uğurlu siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və sosial sahə prioritet sahədir.

Bu il altı milyona yaxın insan dövlət xətti ilə müayinədən keçəcək. Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında bu, artıq özünü tam doğrultmuş bir təcrübədir. Dövlət xəstəxanalar, diaqnostika mərkəzləri tikir, vətəndaşlara imkan yaradır ki, pulsuz müayinədən keçsinlər. Həm paytaxtda, həm böyük şəhərlərdə, həm də əhalisi o qədər də böyük olmayan rayonlarda bütün digər sosial obyektlər yaradılır. Qobustan rayonunun əhalisi təqribən 50 minə yaxındır. Şəhərdə 7 min insan yaşayır. Baxın, rayonun inkişafı, infrastrukturun yaradılması, yolların çəkilməsi ilə bağlı nə qədər böyük işlər görülür. Hər bir bölgədə bütün sahələrdə inkişaf, müasir yanaşma olmalıdır, vətəndaşlara qayğı, diqqət göstərilməlidir. Bu gün biz bunun bariz nümunəsinin şahidiyik. Bu xəstəxana həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından göz oxşayır.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Tibb işçiləri:** Təşəkkür edirik. Çox sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qobustan filialının açılışında iştirak ediblər.











AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müxtəlif əsrlərdə toxunan Salyan, Ağsu, İsmayıllı, Hacıqabul, Ağdaş, Göyçay, Şamaxı, Oğuz, Qəbələ, Qobustan xalçalarına baxdılar.

Ölkəmizdə xalçaçılığın inkişafına xüsusi əhəmiyyət verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib. Milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci vitse-prezident Mehriban Əliyeva da bu qədim sənət növünün yaşadılmasına dəyərli töhfələr verir. Göstərilən diqqət və qayğı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdam xalça müəssisələri istifadəyə verilib. Qobustanla yanaşı, Naxçıvan Muxtar Respublikası, Abşeron, Ağstafa, Cəbrayıl, Goranboy, Kürdəmir, Qazax, Qəbələ, Sabunçu, Şabran ,Tərtər və Tovuzdakı müəssisələr isə istifadəyə hazırdır. Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı müvafiq sərəncamı ilə İsmayıllı rayonunda daha bir xalça emalatxanasının tikintisi davam etdirilir. “Azərxalça” ASC-nin artıq istifadəyə tam hazır olan Qobustan filialı da bu sırada mühüm yer tutur.

Prezident İlham Əliyevin 2016-cı ildə Xalçaçı Günü peşə bayramının təsis edilməsi haqqında imzaladığı sərəncam minlərlə xalçaçını sevindirdi, onların bu sənətin gələcəyi ilə bağlı itirilmiş inamını və ümidini özünə qaytardı. Artıq üç ildir mayın 5-i - “Azərxalça” ASC-nin yaradıldığı gün xalçaçıların peşə bayramı kimi qeyd olunur. Xüsusilə qeyd olunmalıdır ki, “Azərxalça” ASC-nin 2016-2018-ci illərdə fəaliyyətə başlayan 20 filialında 1700-dən çox toxucu çalışır. Bu dövrdə 8500 kvadratmetrdən çox xalça toxunub.

Sonra dövlət başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülən işlərlə bağlı dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, “Azərxalça” ASC-nin Qobustan filialının binasının ümumi sahəsi 1300 kvadratmetrə yaxındır. Dövlət başçısının 2018-ci ildə imzaladığı sərəncama əsasən Qobustan xalça istehsalı emalatxanasının tikintisi və təchizatına dövlət büdcəsindən 2 milyon manat vəsait ayrılıb. Qobustan şəhərinin mərkəzində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub.

Qeyd olundu ki, bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Kürdəmir, Qax, Qəbələ, Qobustan, Oğuz, Salyan, Şamaxı, Şəki, Ucar, Zaqatala və Zərdab rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Toxucular Qobustan şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində “Azərxalça” ASC-nin burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları “Azərxalça” ASC-nin tədris sertifikatını alacaqlar.

Buradakı xalça-satış salonunda “Azərxalça” ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcək.

Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalçaçılarla görüşdülər.

**Xalçaçılar:** Xoş gəlmisiniz, cənab Prezident. Həmişə Siz gələsiniz.

Xalçaçıları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- İlk növbədə, sizi peşə bayramınız münasibətilə təbrik edirəm. Çox şadam ki, bu peşə bayramı günlərində gözəl fabrikin açılışını qeyd edirik. “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti üç il bundan əvvəl mənim sərəncamımla yaradılmışdır. Qarşıya vəzifə qoyulmuşdur ki, ölkəmizin bütün bölgələrində müasir xalça fabrikləri yaradılsın və bu istiqamətdə çox böyük işlər görülüb. Artıq 20 fabrik hazırdır. Ümumiyyətlə, 31 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Hesab edirəm ki, növbəti bir-iki il ərzində qalan fabriklər də istifadəyə veriləcək və beləliklə, Azərbaycan öz qədim sənətini yaşatmaq istiqamətində çox önəmli addım atmış olacaq.

Qobustan fabrikində 150 iş yeri yaradılıb. İşçilərin də mütləq əksəriyyəti qadınlardır. Bu, qadınlar üçün dövlət tərəfindən atılan çox böyük addımdır. Çünki qadınların iş yerləri ilə təmin olunması prosesi xüsusi əhəmiyyət daşıyır. Burada ən müasir avadanlıqlar quraşdırılıb, bütün vasitələr var. Əminəm ki, bu fabrik çox uğurla fəaliyyət göstərəcək. Burada işləyənlər də razı qalacaqlar.

Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. Bildiyiniz kimi, bizim xalçalarımız dünyanın aparıcı muzeylərində nümayiş etdirilir. Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlərboyu biz bu sənəti yaşadırıq. Çox yaxşı haldır ki, bu sənət nəsildən-nəslə ötürülür. Burada təcrübəli xalçaçılar, gənclər işləyirlər. Əminəm, gənclər də bu işə böyük maraqla, həvəslə qoşulacaqlar ki, biz bu sənəti bundan sonra da əsrlərboyu yaşadaq və Azərbaycan öz xalçaçılıq sənətini dünyaya təqdim etsin. Bu, iş yerləri, qeyri-neft sektorunun inkişafı və ixracyönümlü məhsulun istehsalı deməkdir. Çünki bu gün ölkəmizin ümumi iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafı ilə sıx bağlıdır. İxracyönümlü məhsulların istehsalı bu gün prioritet məsələlərdən biridir.

Bilirsiniz ki, bir neçə il bundan əvvəl Bakıda yeni gözəl Xalça Muzeyi yaradılıb. Muzey xalça formasında çox gözəl memarlıq üslubunda yaradılıb. Bütün bölgələrdə 30-dan çox xalça fabrikinin yaradılması bu sahəyə böyük təkan verdi, canlanma gətirdi. Əminəm ki, sizin burada işləriniz uğurla gedəcək. Burada yaradılan şərait ən yüksək standartlara cavab verir.

Bu gün Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışını qeyd etdik. Bu da çox əlamətdar hadisədir. Ən müasir standartlara cavab verən xəstəxanada vətəndaşlara gözəl xidmət göstəriləcək. Rayonda digər sosial layihələr icra edilir. Bu il Qobustan rayonunda 200-ə yaxın ödənişli ictimai iş yeri yaradılacaq ki, bu gün hələ iş tapa bilməyən insanlar o işlərə cəlb olunsunlar. İnfrastruktur layihələri ilə bağlı işlər gedir. Bu gün yeni yol layihəsi istifadəyə verilir.

Bütövlükdə son illərdə rayonda üç yol layihəsi icra edilmişdir. Qazlaşdırma 90 faizə yaxındır. Bu da son illərin uğurlu nəticələridir.

*Ardı 3-cü səh.*

# Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək







*Əvvəli 2-ci səh.*

Elektrik enerjisi ilə bağlı problem yoxdur. Şəhərin içməli su problemini isə biz 2017-ci ildə həll etmişik. Yadımdadır, il yarım bundan əvvəl burada olarkən gözəl tədbir də keçirdik.

Bu səfər mənim Qobustan rayonuna sayca beşinci səfərimdir. Bu, özlüyündə onu göstərir ki, rayonun inkişafına böyük diqqət yetirilir. Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Xalçaçı Sevinc Həşimova:** Hörmətli Prezidentimiz, bu Ramazan ayında bizim Qobustan rayonuna xoş gəlmisiniz. Çox sağ olun ki, bizim gözəl qadınlarımız üçün bu şəraiti yaratmısınız. Şəraitimiz çox gözəldir. Bizim qadınlar Sizdən çox razıdırlar. Onların adından Sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Azərbaycanımızı belə inkişaf etdirirsiniz. Həm Sizə, həm də Mehriban xanıma çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Burada iş şəraitiniz necədir, razısınız?

**Xalçaçılar:** Çox sağ olun, hamımız razıyıq, çox razıyıq.

**Prezident İlham Əliyev:** Əməkhaqqı necə?

**Xalçaçılar:** Əməkhaqqımız artırılıb, çox yaxşıdır. Toxucularımız sevinə-sevinə işləyirlər.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu fabrik açılana qədər siz haradasa işləyirdiniz?

**Xalçaçı Sevinc Həşimova:** Xeyr, evdar xanım olublar.

**Prezident İlham Əliyev:** İndi sizin üçün gözəl şərait yaradılıb, ailə büdcənizə də böyük töhfə olacaq.

**Xalçaçı Sevinc Həşimova:** Əvvəllər evdə xalça toxuyurduq. Bəzən işığımız yanmırdı, lampa işığında toxuyurduq. Şükür Allaha, indi gur işıqlı, gözəl emalatxanamızda xalçalarımızı toxuyuruq. Buna görə Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən çox şadam ki, biz bu fabrikləri yaradırıq. Bütün fabriklər işə düşəndən sonra təqribən 4500-ə yaxın qadın üçün iş yeri olacaq. Əminəm ki, gələcəkdə bu proqram daha da geniş vüsət alacaq. Dövlət öz üzərinə düşən vəzifəni icra edir, bu fabriklər dövlət xətti ilə yaradılır. Amma ümid edirəm gələcəkdə sahibkarlar da bu sahəyə sərmayə qoyacaqlar ki, bu işlər daha geniş vüsət alsın və Azərbaycanın hər bir yerində xalçaçılıq sənəti yaşasın. Çünki bizim bütün bölgələrin özünəməxsus xalçaçılıq məktəbi var. Bu məktəblər bir-birindən fərqlənir. Əlbəttə, bu fərqi mütəxəssislər çox yaxşı seçə bilirlər. Bu isə onu göstərir ki, Azərbaycan çox zəngin mədəniyyətə, çox zəngin tarixə, zəngin ənənələrə malik olan ölkədir. Qədim sənətimizi biz bu gün yaşadırıq, dirçəldirik.

**Xalçaçı Əsarə Abdulrəhimova:** Sizin sayənizdə, cənab Prezident. Allah Sizi qorusun. Xoş gəlmisiniz. Həmkarım emalatxanamız haqqında danışdı. Mən isə Sizə rayonumuzun inkişafına görə “Çox sağ olun!” deyirəm. Qobustanlıların əsas problemi olan içməli suyu çəkdirmisiniz. Bu, Sizin Qobustana beşinci səfərinizdir. Buna görə bütün qobustanlılar adından Sizə təşəkkür edirik, Sizi həmişə dəstəkləyirik. Şəhərimizin kanalizasiya, yol problemləri həll edilib. Buna görə Sizə minnətdarıq. Bütün qobustanlılar Sizi dəstəkləyir, həmişə Sizin arxanızdayıq, Sizi çox sevirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Biz Qobustan rayonunun timsalında ölkəmizin ümumi inkişaf dinamikasını görürük. Çünki vətəndaşları narahat edən əsas problemlər həll olundu. İçməli su ilyarım bundan əvvəl təmin olundu. Qeyd etdiyim kimi, qazlaşdırma 90 faizə çatıb, elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur, yollar çəkilir və növbəti mərhələdə yeni yol layihələri icra ediləcəkdir. Müasir xəstəxana tikilib. Bir neçə məktəb tikilib və təmir edilib, bu proses davam etdiriləcək. İş yerlərinin yaradılması ilə bağlı böyük işlər görülür. Yeni iş yerlərinin yaradılması prioritet məsələdir. Sahibkarlıq, kənd təsərrüfatı inkişaf edir. Bakıdan Qobustana çox gözəl yeni yol çəkildi. Əvvəllər ikicərgəli idi, indi dördcərgəlidir. Yəni, bütün lazımi işlər görülüb. Bütün bu işlər rayonun gələcək inkişafına təkan verəcək.

Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildi, sayca dördüncü proqramdır. Üç proqramın icrası nəticəsində bir çox işlər görüldü. Dördüncü proqram bugünə qədər görə bilmədiyimiz işləri də təmin edəcək. Beş il ərzində Azərbaycanın bütün bölgələrində bütün infrastruktur məsələləri öz həllini tapacaq və bu, ölkəmizin gələcək inkişafına böyük dəstək olacaqdır.

**Xalçaçı Azadə Fənarə:** Hörmətli Prezidentimiz, xoş gəlmisiniz. Rayonumuzun bütün əhalisi adından, xalçaçılar adından Sizə “Xoş gəlmisiniz!” deyirəm. Nənələrimizdən miras qalan xalçaçılıq sənətini bizə yenidən bəxş etdiyinizə görə Sizə uğurlar diləyirəm, Sizi Rəbbim qorusun.

İcazənizlə, bu balaca xalçanı Mehriban xanıma təqdim etmək istəyirəm. Mehriban xanım, bu, Qobustanın rəmzidir, qapının üstünə asırlar, sağlıqla işlədin. Bütün qobustanlılar adından Sizə təşəkkür edirəm.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun. Mənim dərin hörmətimi qobustanlılara çatdırın.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev müəssisədə toxunan ilk xalçanı kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev: “Mən sahibkarları dəstəkləyirəm”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışında da iştirak ediblər.





AZƏRTAC xəbər verir ki, “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov müəssisənin fəaliyyəti barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1770 kvadratmetr olan məntəqə istehsalat və inzibati bölmədən ibarətdir. Dövlət başçısının tapşırığı ilə “Azərxalça” ASC-nin filiallarının, ölkəmizdə fəaliyyət göstərən özəl xalçaçılıq müəssisələrinin yun ipliklə təmin olunması üçün mühüm tədbirlər görülür. Bu istiqamətdə həyata keçirilən layihələrdən biri Sumqayıt Kimya Sənaye Parkında “Azərxalça” ASC-nin yunəyirici-boyaq fabrikinin inşasıdır. Hazırda fabrikin tikintisi sürətlə davam etdirilir. Bu fabrikin xammalla təminatı məqsədilə Naxçıvan şəhərində, Bərdə, Qobustan, Şabran və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılıb. Son illər bu sahənin inkişafına göstərilən diqqət, ölkəmizin müxtəlif bölgələrində emalatxanaların fəaliyyətə başlaması xalça toxunması üçün xammal bazasının yaradılması zərurətini meydana çıxarıb. Bu baxımdan yunəyirici-boyaq fabrikinin və regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması idxaldan asılılığı tamamilə aradan qaldıracaq. Tədarük məntəqələri heyvandarlığın inkişafına da öz təsirini göstərəcək. Bu, qoyunçuluq təsərrüfatlarının, fermerlərin yun satışı probleminin həllinə imkan verəcək.

Bildirildi ki, regional tədarük məntəqələrində ildə 1500 ton yun qəbul olunacaq. Hər tədarük məntəqəsində 300 ton yun qəbulu nəzərdə tutulub. Qobustandakı tədarük məntəqəsi 14 rayonu əhatə edəcək. Bu məntəqənin imkanlarından Qobustan, Şamaxı, İsmayıllı, Ağsu, Göyçay, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, Ağdaş, Zərdab rayonlarının, Şəki şəhərinin və Bakının Qaradağ rayonunun sakinləri yararlanacaqlar. Bu işin yüksək səviyyədə təşkili məqsədilə maarifləndirici tədbirlər də keçirilib. Bu məntəqədə növbəti ildən boyaq bitkiləri də qəbul olunacaq. Yun tədarükü zamanı xalça toxunması üçün iplik istehsalına yararlı olan yunun qəbuluna üstünlük veriləcək. Belə ki, iplik istehsalı üçün yalnız ildə bir dəfə qırxılan, uzunluğu 8 santimetr olan yunun qəbulu həyata keçiriləcək. İplik istehsalına yararlı olmayan yun isə yuyularaq xammal kimi satışa çıxarılacaq. Bunun üçün araşdırma aparılıb, hansı ölkədə belə xammala tələbatın olduğu müəyyənləşdirilib. Bu məntəqədə növbəti ildən boyaq bitkiləri də qəbul olunacaq.

Məlumat verildi ki, Qobustanın ərazisi boyaq bitkiləri ilə zəngindir. İnsanlar onları toplayıb tədarük məntəqəsinə təhvil verməklə həm də əlavə qazanc əldə edəcəklər. Həm yun, həm də boyaq bitkiləri ilboyu qəbul ediləcək.






Diqqətə çatdırıldı ki, regional məntəqəyə gətirilən məhsul rənginə və ölçüsünə görə çeşidlənəcək. Yun çeşidləndikdən sonra kipləşdiriləcək, onların üzərinə xüsusi yarlıqlar vurulacaq. Həmin yarlıqda yunun rəngi, qəbul tarixi, hansı rayondan alındığı, çəkisi, növü, qaba və incəliyi, nəmliyi barədə məlumatlar əksini tapacaq. Məntəqədə kipləşdirilmiş yun Sumqayıtdakı yunəyirici-boyaq fabrikinə təhvil veriləcək.

Bildirildi ki, Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsində 25 nəfər daimi işlə təmin olunub.

Dövlət başçısı müəssisənin işçiləri ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** İşiniz necədir, razısınız?

**İşçilər:** Çox sağ olun. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Nə qədər əməkhaqqı verilir, qane edir?

**İşçi:** Şükür, lap yaxşıdır. Sizdən də, müdiriyyətimizdən də razıyıq. Çox sağ olun. Həmişə Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Xalçaçılıq elə sənətdir ki, Azərbaycan xalqının istedadını dünyaya göstərir. Eyni zamanda, xalçaçılıq sənəti böyük işlərin təkanverici amilidir. Məsələn, indi ölkəmizdə yun tədarükü mərkəzləri yaradılır. Beş mərkəz yaradılıb, biri də burada. Sumqayıtda yunəyirici-boyaq fabriki yaradılır. Yəni, gələcəkdə biz özümüzü bütün xammalla - iplər, boyaq və yun ilə təmin edəcəyik. Beləliklə, minlərlə iş yeri yaradılır və yaradılacaq. Sahibkarlar da bu işlərdə fəal iştirak edirlər. Sizin də işiniz ümumi inkişafımıza böyük dəstək olacaqdır.

**Sahibkar:** Cənab Prezident, biz uzun müddət idi ki, tədarük etdiyimiz yunu heç yerə verə bilmirdik. Sizin sayənizdə bura açılıb, biz çölə tulladığımız, sata bilmədiyimiz yunu bu gün buraya veririk, çoxlu pul qazanırıq. Bu pula mal-qara alırıq, fermamızı genişləndiririk. Bizə bu şəraiti yaratdığınıza görə Sizə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Sahibkarlara gözəl şərait yaradılıb. Mən sahibkarları dəstəkləyirəm, onlara dövlət tərəfindən maddi dəstək göstərilir. Bilirsiniz ki, güzəştli şərtlərlə kreditlər verilir. Bu il sahibkarlara güzəştli şərtlərlə 170 milyon manat kreditlər veriləcək ki, onlar öz işlərini daha da yaxşı qura bilsinlər. Eyni zamanda, yun tədarükü ilə bağlı göstəriş verilmişdir ki, məntəqələr yaradılmalıdır. Çünki bu, böyük problem idi, yun tədarükü kortəbii şəkildə təşkil olunurdu. İndi bu iş mərkəzləşmiş qaydada görülür. Beş məntəqə yaradılıb və hər zonanın fermerləri artıq bilirlər ki, yunu hara gətirsinlər, kimə təhvil versinlər və pullarını alsınlar. Fəhlələr də, toxucular da işləyirlər və budur, bir zəncir yaradılır. Əminəm ki, Azərbaycanda yun tədarükü böyük dərəcədə artacaq.

**İşçilər:** Çox sağ olun. Allah Sizdən razı olsun. Kollektivimiz adından Sizə təşəkkürümüzü bildiririk. Sizə uzun ömür, cansağlığı arzulayırıq, bizə bu şəraiti yaratdığınıza görə Sizə minnətdarıq.

**Birinci xanım Mehriban Əliyeva.** Çox sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# 5 min nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən avtomobil yolu istifadəyə verilib





Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan-Poladlı avtomobil yolunun açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 5 min nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin 2018-ci ildə imzaladığı sərəncama əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılıb. İki hərəkət zolaqlı yolun ümumi uzunluğu 14,5 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Dördüncü texniki dərəcəli yolun inşası zamanı müxtəlif diametrli 7 suötürücü boru quraşdırılıb, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri qoyulub, yol cizgi xətləri çəkilib. Yolun inşası texnoloji ardıcıllığa uyğun və yüksək keyfiyyətlə həyata keçirilib. Qobustan-Poladlı yolu bu bölgədə yaşayan insanların Bakı-Şamaxı-Yevlax avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməsinə imkan yaradıb. Bu layihənin icrası sürücülərin təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Bakıda Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin II toplantısı keçirilib




Mayın 7-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin II toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Türk Şurasının baş katibi Bağdad Amreyev informasiya və media üzrə məsul nazirlərin və yüksəkvəzifəli rəsmilərin ötən toplantısından sonra görülən işlər barədə məlumat verib. O, işçi qrupunun VII toplantısında müzakirə edilən məsələlərdən danışıb. Baş katib deyib ki, VII toplantıda Şuraya üzv dövlətlər üçün önəmli məsələlər müzakirə olunub.

Toplantıda çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib ki, on il bundan əvvəl Naxçıvanda yaradılan Türk Şurası üzv dövlətlərin maraqlarını ifadə edərək müxtəlif aspektlər üzrə fəaliyyət göstərir. Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin I toplantısı Qazaxıstanın Astana şəhərində keçirilib. Həmin toplantıda üzv dövlətlərin televiziya və informasiya qurumları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı mühüm qərarlar qəbul edilib və bu istiqamətdə xeyli iş görülüb. Bugünkü toplantıda da müzakirə olunan əsas məsələ dövlətlərimiz arasında mətbuat sahəsində əməkdaşlığın inkişaf etdirilməsidir. Bu əməkdaşlıq Avrasiya və dünya məkanında xalqlarımızın maraqlarının qorunmasına xidmət etməlidir.

Prezidentin köməkçisi qeyd edib ki, şuraya üzv olan ölkələrin hər biri bərabərhüquqludur. Əməkdaşlıq mühiti şuranın əldə etdiyi ən böyük nəticədir. Əməkdaşlıq istiqamətində bütün məsələlərə dəstək verməyə hazırıq.

Əli Həsənov vurğulayıb ki, televiziya sahəsində qarşılıqlı əlaqələr genişləndirilməli və dövlətlərin milli bayramları da efir vasitəsilə yayımlanmalıdır. Türk Şurasına üzv dövlətlərin aparıcı mətbuat orqanları, televiziyaları bir-biri ilə əlaqə qurub: “Nəyə görə bizim televiziya kanallarının yerli kabel şəbəkələrində təmsilçiliyi təmin olunmur? Təəssüflər olsun ki, Azərbaycan televiziyalarının verilişlərinin nə Qazaxıstanda, nə də Qırğızıstanda yayımlanmasına rast gəlinir. Təklif edirəm ki, Azərbaycanın dövlət və ictimai televiziyalarının verilişləri Türk Şurasına üzv dövlətlərdə yayımlansın. Eyni zamanda, həmin ölkələrin də dövlət və ictimai televiziyalarının verilişləri Azərbaycanda yayımlansın”.

Prezidentin köməkçisi qeyd edib ki, vahid türkdilli televiziyanın yaradılması təşəbbüsü dörd ildir müzakirə olunur. Təəssüflər olsun ki, bu məsələ həllini tapmayıb. Mövcud televiziyalardan birinin türkdilli dövlətlərin vahid kanalına çevrilməsi, bu funksiyanın hansısa formada icra edilməsi gündəlikdədir. TRT AVAZ kanalı bu mənada müzakirə obyektidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Əli Həsənov qeyd edib ki, bu regionun və dünyanın ən çətin həll olunan münaqişələrindən biridir. Burada işğalçı və işğala məruz qalan tərəf var, hər şey aydındır: “Bizim türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacımız var. Çünki zaman-zaman ermənilər öz təbliğatlarını həyata keçiriblər. Bu baxımdan Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür. Misal üçün, 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycanın informasiya dəstəyinə ehtiyacı var idi. Ermənilərin təxribatları, onların bölgədə həyata keçirdiyi işğalçılıq siyasəti, Azərbaycanın mədəni və dini obyektlərini dağıtmasının regionda və dünyada nümayiş etdirilməsinə ehtiyac var idi. Ona görə hesab edirəm ki, Türk Şurasına üzv dövlətlər belə məqamlarda bir-birinə dəstək verməlidir”.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün dünyada islamofobiya meyilləri güclənir. İslam dininə qarşı çirkin kampaniya aparılır. Müsəlman ölkələri, xalqları terrorla eyniləşdirilir. Onların mövcud multikultural dəyərləri, mədəniyyətləri, gözəl adət-ənənələri mənfi çalarda təqdim edilir. Türkdilli dövlətlər bu məsələdə də vahid mövqedən çıxış etməlidirlər.

Qazaxıstanın informasiya və sosial inkişaf nazirinin müavini Marad Azilxanov qeyd edib ki, ölkəsi Türk Şurasının üzvü olan dövlətlərin telekanallarının və informasiya agentliklərinin əməkdaşlığının genişləndirilməsini dəstəkləyir. O təklif edib ki, şuraya üzv ölkələr Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin “Böyük Çölün yeddi özəlliyi” adlı məqaləsi ilə bağlı sənədli filmin çəkilməsinə dəstək versinlər. Nazir müavini, eyni zamanda, üzv dövlətlərin telekanallarında 4 ölkənin filmlərinin nümayiş olunması təklifini yüksək dəyərləndirib.

Qırğızıstanın Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Baxtımgül Novruzbayova bildirib ki, ölkəsi şuraya üzv dövlətlərə aid xəbərlərin və videoların yayılmasını təmin edir. Qırğızıstan Türk Şurası ölkələrində baş verən hadisələrin operativ şəkildə geniş coğrafiyaya çatdırılmasında maraqlıdır. B.Novruzbayova vurğulayıb ki, media qurumlarının imicinin artırılması istiqamətində daha çox iş görülməlidir.

Türkiyə Prezidentinin baş müşaviri, mədəniyyət, informasiya və turizm nazirinin müavini, TRT-nin İdarə Heyətinin üzvü Mustafa Akış çıxış edərək deyib ki, 2009-cu ildə yaradılan TRT AVAZ türk xalqları arasında əməkdaşlığı daha da gücləndirdi. Bu kanal türk xalqlarına aid mədəniyyətin və tarixin dünya ictimaiyyətinə çatdırılmasında mühüm işlər görür. TRT AVAZ-ın hazırladığı verilişlər TRT-nin digər kanallarında da nümayiş olunur. TRT AVAZ-ın həyata keçirdiyi işlər bundan sonra da gücləndirilməlidir. Bunun üçün türk dünyasının dəstəyi artırılmalıdır.

Türk Şurasının baş katibinin müavini Ömər Kocaman işçi qrupunun VII toplantısında aparılan müzakirələr barədə məlumat verərkən qeyd edib ki, media qurumlarının əməkdaşlığının gücləndirilməsi üçün vahid şəbəkənin yaradılması qərara alınıb. Türk xalqlarının tarixi şəxsiyyətləri ilə bağlı filmlərin çəkilməsi təklifinin də irəli sürüldüyünü deyən baş katibin müavini bununla əlaqədar razılıq əldə olunduğunu bildirib. Bundan başqa, üzv ölkələrin televiziya kanallarının öz yayımlarını rahat şəkildə həyata keçirmələri üçün kabel yayımı ilə bağlı da müzakirələrin aparıldığı diqqətə çatdırılıb.

Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmov qeyd edib ki, bu gün Türk Şurası üçün vahid informasiya məkanı mövcud deyil. Bunun üçün şuraya üzv dövlətlərin siyasi maraqları təmin olunmalıdır. Üzv ölkələrin telekanallarının kabel yayımı barter əsasında olmalıdır. Çünki kabel yayımı ilə məşğul olan qurumların biznes maraqları var.

Üzv ölkələrin filmlərinin nümayişinin tarixi günlərdə həyata keçirilməsinin məqsədəuyğun olduğunu deyən MTRŞ sədri bildirib ki, bunun sayəsində dövlətlər qarşılıqlı olaraq tarixləri ilə bağlı məlumat əldə edə bilərlər. Ortaq xəbər kanalının yaradılmasına gəldikdə, deməliyəm ki, bu, çox mürəkkəb prosesdir. Bu kanal üçün ortaq dil kimi türk dillindən istifadə edilməsi məqsədəuyğundur.

Toplantıya yekun vuran Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qeyd edib ki, türk coğrafiyasının dünyanın tanımalı olduğu şəxsiyyətləri var. Dünya bu cür şəxsiyyətləri daha yaxşı tanımalıdır. Bu tarixi şəxsiyyətlərlə bağlı filmlər türk, rus və ingilis dillərində olmalıdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Mədəniyyət Nazirliyi bu məsələnin reallaşmasına dəstək verməyə hazırdır.

Prezidentin köməkçisi ortaq türk kanalı ilə bağlı bildirib ki, TRT AVAZ-ın tərkibində belə bir kanalın yaradılması məsələsi prezidentlərin qərarından asılıdır. O, “Euronews” nümunəsini misal çəkərək deyib ki, bu kanalda müxtəlif dövlətlərin səhmləri var.

İnformasiya agentliklərinin jurnalist və təcrübə mübadiləsinin əhəmiyyətindən danışan Əli Həsənov deyib ki, AZƏRTAC bu istiqamətdə səylər göstərir, tərəfdaş agentliklərlə yaxşı əlaqələr qurub.

Türk Şurasına üzv dövlətlər arasında xəbər platformasının yaradılmasının vacibliyinə toxunan Prezidentin köməkçisi qeyd edib ki, mətbuat nümayəndələrinin media forumlarının keçirilməsi tərəflər arasında əməkdaşlığı daha da gücləndirər. Azərbaycan türkdilli dövlətlərin media forumunun Bakıda keçirilməsinə hazırdır. Forumda təkcə telekanallarla bağlı məsələ deyil, ümumilikdə jurnalistlər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılmalıdır.

Çıxışlardan sonra Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin III toplantısının Qırğızıstanda keçirilməsi qərara alınıb.

Daha sonra TRT AVAZ-ın Türk Şurasına üzv ölkələrin tarixi və mədəniyyəti ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

Sonda milli ictimai televiziya kanalları arasında çoxtərəfli texniki əməkdaşlıq protokolu imzalanıb.

## Qobustan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla yerinə yetirilməsi nəticəsində Qobustan rayonunda sosialyönümlü bir sıra layihələr həyata keçirilmiş, o cümlədən rayon Mərkəzi Xəstəxanası, Qobustan İdman Kompleksi, Gənclər Mərkəzi, Bayraq meydanı, əlil və şəhid ailələri üçün ümumilikdə 24 mənzilli 2 yaşayış binası inşa edilmiş, müasir tələblərə cavab verən turizm obyekti, 18 ümumtəhsil məktəbi istifadəyə verilmişdir. Bundan başqa, şəhərin su təchizatı sistemi yenidən qurulmuş, regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi, xalçaçılıq müəssisəsi yaradılmış, yeni avtomobil yolları çəkilmiş, geniş abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qobustanda istismar müddəti başa çatmış 6 ikimərtəbəli 8 mənzilli binada yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Qobustan şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qobustan Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2019-cu il*

## Qobustan rayonunun Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2019-cu il*

## Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısını artırmaq məqsədilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına 300 000 (üç yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2019-cu il*

## Azərbaycan Prezidentinin göstərişi ilə Yəmənə humanitar yardım göstərilib

Yəməndə baş verən humanitar böhranla əlaqədar BMT-nin baş katibi Antonio Quterreşin üzv dövlətlərə ünvanladığı müraciətlə bağlı Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə bu ölkəyə humanitar yardım göstərilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sözügedən yardımın BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi (OCHA) vasitəsilə Yəməndə humanitar böhrandan əziyyət çəkən əhaliyə təcili humanitar yardım şəklində çatdırılması nəzərdə tutulub.

BMT-nin hesablamalarına görə, dünyanın ən acınacaqlı humanitar fəlakətinin yaşandığı Yəməndə 24 milyon insanın (əhalinin 80 faizi) humanitar yardıma ehtiyacı var, 250 min şəxs isə kəskin aclıqdan əziyyət çəkir. Ölkədə 3,3 milyon məcburi köçkün olmaqla əhali arasında müxtəlif növ təhlükəli xəstəliklər yayılmaqdadır.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar gənc rəssamların sərgisi açılıb





Mayın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar gənc rəssamların sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov çıxış edərək ulu öndərin mədəniyyətimizə və incəsənətimizə olan dövlət qayğısından söhbət açıb. Bildirib ki, Heydər Əliyev həmişə mədəniyyətə, sənətə önəm verib. Bu, ümummilli liderin xalqımız qarşısında göstərdiyi möhtəşəm xidmətlərinin bir qolunu təşkil edir.

"Bu gün burada əsərləri nümayiş olunan gənc rəssamlar xalq rəssamı Sakit Məmmədovun tələbələridir. YAP-ın binasında belə sərginin keçirilməsini yüksək qiymətləndirirəm və inanıram ki, bu sərgi gənc rəssamların yaradıcılığının təbliğinə imkan verəcək. Həmçinin bu tədbir partiyamızla gənc rəssamların, mədəniyyət işçilərinin əməkdaşlığı kimi nəzərdən keçirilə bilər. Gənc rəssamlar bir daha Heydər Əliyevi doğum günündə ehtiramla yada salır, hörmətlə anırlar. Biz gənc rəssamların fəaliyyətinin genişlənməsi üçün onlara imkan daxilində dəstək olmağa hazırıq. Bu sərginin keçirilməsi də gənc rəssamların tanıdılmasına, təbliğinə xidmət edir. Burada əsərləri təqdim olunun müəlliflərin böyük gələcəyi var. Yəqin ki, onların yaradıcılığını bundan sonra da izləyəcəyik və gələcəkdə Azərbaycanın möhtəşəm əsərlər yarada bilən rəssamlarının içərisində onların adlarına da rast gələ biləcəyik. Hesab edirəm ki, bu sərgi onların ölkəmizdə daha da tanınmasında köməklik göstərəcək".

Bildirilib ki, sərgidə 40-a yaxın gənc rəssamın əsəri nümayiş edilir.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb

Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə təşkil olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



Tədbirdən öncə rəhbər təhsil işçiləri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.












AZƏRTAC xəbər verir ki, "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, Milli Məclisin Sədr müavini Bahar Muradova, digər dövlət rəsmiləri, deputatlar, təhsil müəssisələrinin, media qurumlarının rəhbərləri, təhsil ekspertləri, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyasının xor kollektivinin ifasında Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev təhsilin inkişafına daim böyük diqqət və qayğı göstərib, təhsilin inkişafı hər zaman ulu öndərin genişmiqyaslı fəaliyyətində prioritet sahə kimi mühüm yer tutub. Ümummilli lider tərəfindən əsası qoyulan inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən nazir bu sahədə əhəmiyyətli işlərin görüldüyünü vurğulayıb. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası istiqamətində əldə edilmiş nailiyyətləri diqqətə çatdıran Ceyhun Bayramov qarşıda mühüm hədəflərin dayandığını da əlavə edib. Bildirib ki, peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, məktəbəqədər təhsillə əhatəlilik səviyyəsinin 90 faizə çatdırılması, ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində tədbirlər davam etdiriləcək.

Ceyhun Bayramov qeyd edib ki, dövlət başçısı tərəfindən həyata keçirilən ardıcıl siyasət nəticəsində ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrlar hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul olunub.

Təhsilin məzmununun gələcəyin çağırışlarına cavab verməsi və innovativ inkişafın təmin edilməsi baxımından yenilənməsinin mühüm prioritetlərdən olduğunu deyən nazirin sözlərinə görə, ümumi təhsildə təmayülləşmə istiqamətlərinin artırılması, növbəti tədris ilində 20 məktəbdə peşəyönümü təmayüllü siniflərin açılması hədəf kimi müəyyən edilib. Ceyhun Bayramov ümumi təhsil müəssisələrində mənəvi-psixoloji mühitin yaxşılaşdırılması, tərbiyə işinin səmərəli təşkili, məktəb-ailə münasibətlərinin düzgün qurulmasının ən vacib məsələlərdən olduğunu deyib.

Təhsil naziri bu müsabiqənin müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin irsinin, şərəfli ömür yolunun və fəaliyyətinin gənc nəsil tərəfindən davamlı olaraq öyrənilməsi məqsədilə keçirilən kütləvi və mühüm tədbirlərdən biri olduğunu vurğulayıb, müsabiqənin qaliblərini təbrik edərək onlara uğurlar arzulayıb.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov bildirib ki, bu gün ölkədə təhsilin inkişafına əhəmiyyətli yer verilməsi, bu sahədə genişmiqyaslı islahatların həyata keçirilməsi Azərbaycanın uğurlu gələcəyinin təminatına xidmət göstərir.

"Ən yaxşı təqdimat" müsabiqəsinin əhəmiyyətini qeyd edən Əli Əhmədov ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün göstərdiyi misilsiz xidmətlərdən danışıb. Qeyd edib ki, bu müsabiqə ulu öndər Heydər Əliyevin zəngin irsinin mənimsənilməsi, gənclərin dövlətçilik məfkurəsinin formalaşması baxımından əhəmiyyətli rol oynayır.

Daha sonra Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək müsabiqənin gənclərin bilik və bacarıqlarının artırılmasına töhfə verdiyini bildirib. O, müsabiqə iştirakçılarının komitə tərəfindən mükafatlandırılacağını deyib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ənənəyə çevrilən bu müsabiqənin gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmətlə yanaşmasında xüsusi rol oynadığını qeyd edib. Elmir Vəlizadə ölkəmizdə gənclərin inkişafının daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Mərasimdə müsabiqə qaliblərinin təqdimatlarından ibarət qısa videoçarx nümayiş olunub. Videoçarx Təhsil televiziyası tərəfindən hazırlanıb.

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin və Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyası şagirdlərinin ifasında musiqi əsərləri səsləndirilib.

"Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, 6 nəfər birinci, 11 nəfər ikinci, 18 nəfər üçüncü dərəcəli diplomla, 27 nəfər isə tərifnamə ilə təltif olunub.

Qaliblərə diplomlar və qiymətli hədiyyələr təqdim edilib.

Ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən müsabiqə Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunub.

# Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti ulu öndər Heydər Əliyevin xatirəsini yad edib









Mayın 7-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şəxsi heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini yad edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Xidmətin əməkdaşları, DTX-nin "N" saylı hərbi hissəsinin zabit və əsgərləri ulu öndərin məzarı önünə əklil qoydular, əziz xatirəsinə ehtiramlarını bildirdilər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olundu.

Azərbaycanın təhlükəsizlik orqanlarının inkişafında, bu mühüm dövlət təsisatında milliləşmə prosesinin və peşəkarlıq məktəbinin banisi ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Ulu öndərin hələ sovet dövründə dövlət təhlükəsizlik orqanlarında milliləşdirmə siyasətinin aparılmasında, milli kadrların yetişdirilərək vəzifədə irəli çəkilməsində rolu əvəzsizdir. Bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti dahi rəhbərin şanlı vətənpərvərlik və peşəkarlıq irsini qürur və şərəflə yaşadaraq, müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı qorunması işini əzmlə davam etdirir. Xidmətin hər bir əməkdaşı bununla fəxr edir. Xalqımız qətiyyətlə əmindir ki, Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə daha da inamla addımlayan ölkəmiz yeni-yeni zəfərlərə imza atacaq. Azərbaycan əsgəri qarşısına qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirməyə qadirdir.

# Yurdçu kəndində qapalı suvarma şəbəkəsi qurulub

Mayın 7-də Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat verib ki, qapalı suvarma şəbəkəsi 59 hektar sahədə qurulub. "Qıvraq-1" nasos stansiyası vasitəsilə su Arpaçay sol sahil kanalından Yurdçu kəndindəki hovuza vurulur və öz axını ilə əraziyə ötürülür. Tikinti işləri aparılarkən uzunluğu 1100 metr olan ana xətt və 5470 metr paylayıcı boru xətti çəkilib. Boru xətlərinin üzərində 2 siyirtmə, 63 suvarma hidrantı və dəmir-beton hovuzlar quraşdırılıb. Suvarma mövsümü başa çatdıqdan sonra boru xəttindən suyun boşaldılması üçün 2 suboşaldıcı qoyulub.

Bildirilib ki, hazırda Kəngərli rayonunda 100 hektara yaxın, Şahbuz rayonunun Türkeş kəndi ərazisində isə 300 hektar sahədə qapalı suvarma şəbəkələrinin tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yurdçu kəndində qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirərək deyib: "Kəngərli rayonunun yaradılmasından 15 il ötür. Ötən dövrdə rayon böyük inkişaf yolu keçərək formalaşmış, dövlət strukturlarının fəaliyyətləri üçün lazımi şərait yaradılmışdır. Kəngərli rayonunda əkinəyararlı torpaqların suvarılması da qarşıda duran əsas vəzifələrdəndir. Bu istiqamətdə də işlər görülmüş, Böyükdüz və Xok kəndlərində qapalı suvarma şəbəkəsi qurulmuşdur. Bu gün isə Yurdçu kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilir. Artıq rayonda 2 min hektara yaxın ərazi yeraltı şəbəkə ilə əhatə olunmuşdur. 100 hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsinin qurulması isə davam etdirilir. Gələcəkdə Böyükdüz kəndi ərazisindəki qapalı suvarma şəbəkəsi də genişləndiriləcəkdir. Həyata keçirilən tədbirlər rayonda aqrar sahənin inkişafına səbəb olmuşdur. Muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasında Kəngərli rayonu da iştirak edir. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu sabitliyin və inkişafın ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir".

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsini işə salıb.

Vasif Talıbov qapalı suvarma şəbəkəsinin əhatə etdiyi torpaqların əkilməsi və meliorativ tədbirlərin diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

# Ulu öndər Heydər Əliyevə həsr olunan konfrans keçirilib

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ümummilli lider Heydər Əliyevə həsr edilən "Azərbaycan. Lider. Tərəqqi" mövzusunda TEDxUNEC konfransı keçirilib. Azərbaycanda ulu öndərə həsr olunan ilk TEDx tədbirində dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, ziyalılar iştirak ediblər.








TEDx konfransında AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun direktoru, professor Vaqif Abbasov "Liderlik fəlsəfəsi", Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı "Azərbaycanın lideri", Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc "Liderin Azərbaycanı" mövzularında məruzə ilə çıxış ediblər.

Vaqif Abbasov 6 min illik sivilizasiya tarixində böyük liderlər siyahısında Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin müstəsna yeri olduğunu bildirib. Liderliyin 21 inkarolunmaz qanunundan söz açan məruzəçi liderlik keyfiyyətlərinin ulu öndər Heydər Əliyevdə bütünlüklə tamamlandığını vurğulayıb. Bu gün Azərbaycanın Cənubi Qafqazın ən güclü dövləti olduğunu, ölkəmizin bütün sahələrdə uğur qazandığını deyən V.Abbasov bu uğurların əsasında məhz Heydər Əliyevin dahi liderliyinin dayandığını bildirib. Professor bildirib ki, Prezident İlham Əliyev öz uğurlu siyasi fəaliyyəti ilə ümummilli liderin ən layiqli varisi olduğunu sübut edib.

Mübariz Qurbanlı ulu öndər Heydər Əliyevi fəlsəfi və tarixi baxımdan böyük xəzinə adlandırıb. Hər bir dahi şəxsiyyətin zamanın tələblərinə görə tarixi xidmətlər göstərdiyinə diqqət çəkən M.Qurbanlı Heydər Əliyevin adının tarixə qurucu lider kimi yazıldığını bildirib. Ulu öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəltdiyini, onun ömür yolunun isə Vətənə xidmətin parlaq nümunəsinə çevrildiyini deyib.

Zahid Oruc ümummilli lider Heydər Əliyev barədə son fikri söyləməyin mümkünsüzlüyünü bildirərək bu dahi şəxsiyyətə olan münasibətin tarixiləşdiyini qeyd edib. Azərbaycan xalqının müstəqil dövlət qurmağı tam olaraq Heydər Əliyevin liderliyi ilə qəbul etdiyini deyən millət vəkili, məhz bu dahi siyasətçinin sayəsində ölkəmizin bütün sahələrdə lider dövlətə çevrildiyini bildirib. Ulu öndərin liderlik keyfiyyətinin onun öz iradəsini, hünərini xalqla birgə verdiyi qərarlarda özünü göstərdiyini vurğulayan məruzəçi Heydər Əliyevin siyasi kursunun hər zaman yaşayacağına əminliyini ifadə edib.

Tədbirdə UNEC Yaradıcılıq Mərkəzinin üzvləri ulu öndərə həsr olunan şeirlər səsləndiriblər.

***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2019

# 50 illik şanlı salnamə

## İnkişaf, quruculuq, müstəqillik, milli dövlətçilik dövrü və ən nəhayət, tarixin ən qüdrətli Azərbaycanı

*Əvvəli 1-ci səh.*

Bu seçkilər ölkənin demokratik inkişafına və dinamik tərəqqisinə xidmət edən islahatların sürət dinamikasına yeni təkan oldu. Siyasi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə imkan yaratdı. Azərbaycanın beynəlxalq imicinin yüksəlməsində mühüm rol oynadı.

Zaman anlayışı nisbi səciyyə daşıyır. Bu mənada son bir ili, əslində, onilliklərə bərabər zaman kəsiyi kimi də dəyərləndirə bilərik. Ötən 16 ildə Heydər Əliyev siyasi kursunu əzmlə davam etdirən İlham Əliyev 2018-ci ilin 11 aprel seçkilərindən sonra cəmiyyətin sosial sifarişinə əsaslanan inqilabi, daha genişmiqyaslı islahatların reallaşmasını təmin etdi. Ötən dövrdə uğurla davam etdirilən islahatlar insan amilinin dövlətimizin rəhbərinin siyasətində hər şeydən üstün olduğunu göstərdi. Dövlətin xalqa layiqli xidmət missiyası tam mahiyyəti ilə gerçəkləşmiş oldu. Vətəndaşların dövlətinə, ən əsası onun rəhbərinə inam və etimadı, rəğbəti gücləndi. İctimai rəyə həssas münasibət əsasında bütövlükdə toplumun maraqlarını ifadə edən sosial tədbirlər real həyata vəsiqə aldı. Bəli, son prezident seçkilərindən ötən qısa zamanda cəmiyyət fundamental islahatların daha sürətli davamına şahidlik etdi. Xalqdan növbəti dəfə mandat alan İlham Əliyev bu islahatlara şəxsən müəlliflik edərək xalqın istisnasız etimad ünvanı olduğunu nümayiş etdirdi. Şəhid anasına, sadə vətəndaşa doğru, vicdanlı, məsuliyyətli xidmət örnəyi oldu.

Azərbaycanın son illərdəki böyük uğurları fonunda biz bəzən hər bir yeniliyi, uğuru adi həyat reallığı kimi dəyərləndiririk. Bir zamanlar əlçatmaz olan, xəyal kimi görünən iri layihələrin qısa zamanda reallaşması bizdə artıq heyrət doğurmur. Lakin ötən illərə boylandıqca bu həqiqəti də birmənalı etiraf etməli oluruq: müstəqil Azərbaycan son 26 ildə məhz Heydər Əliyev fenomeninin - dahi rəhbərin mükəmməl siyasi ideyaları əsasında müəyyənləşdirdiyi yolla inamla irəliləyib, böyük uğurlara imza atıb.

Xoş qismətdən böyük bir siyasi epoxaya şahidlik taleyimə yazılıb: hələ ötən əsrin 60-70-ci illərindən böyük strateq Heydər Əliyevin komandasında çalışmışam. Son bir ildə dövlət rəhbəri İlham Əliyevin reallaşdırdığı islahatları nəzərdən keçirdikcə unudulmaz xatirələr xəyalən məni uzaq olmayan keçmişə - həmin illərə aparır. Yaxşı xatirimdədir, böyük öndər 1969-cu ilin 14 iyulunda respublikaya rəhbər seçiləndən sonra məhz islahatçı ruhla, dəmir əzm və qətiyyətlə islahatlara başlamışdı. Əminliklə deyə bilərik ki, müstəqillik illərində qazandığımız böyük nailiyyətlərin əsası hələ ötən əsrin 70-80-ci illərində qoyulub.

Bu həmin dövr idi ki, Azərbaycan iqtisadi göstəricilərinə görə keçmiş SSRİ respublikalarından geridə qalır, sahibsiz ölkə təəssüratı yaradırdı. İqtisadi cəhətdən tənəzzül dövrünü yaşayan respublikada mənəvi-psixoloji durum da son dərəcə pisləşmişdi. Vəziyyətdən çıxış yolu kimi vətənpərvər və enerjili kadrın - ümummilli liderin Azərbaycanda hakimiyyətə irəli çəkilməsi ümumən xalqımızın taleyində yeni səhifəyə çevrildi.

Xalqına bağlı olan lider çevik təşkilatçı, zamanın nəbzini tuta bilən rəhbər kimi sübut etdi ki, milli təəssübkeşlik hissi yaranan zaman qısa müddətdə çox uğurlara nail olmaq mümkündür. Və elə bu daxili əminliklə də ulu öndər problemlər məngənəsində çapalayan cəmiyyətin özünəinamını bərpa etdi. İlk növbədə milli ruhu məhv olmaq təhlükəsindən qorudu, xalqı tarixi keçmişinə qovuşdurdu. İmperiya dövründə millətə vicdanlı, sədaqətli, ləyaqətli xidmətin parlaq nümunələrini yaratdı. 70 illik Sovetlər birliyi dövründə bu imperiya hüdudlarında öz xalqına Heydər Əliyev qədər sədaqətlə, əzmlə xidmət edən ikinci bir rəhbər olmayıb!

Ümummilli lider tez-tez xalq arasına çıxır, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənirdi. Xüsusən hələ çox tanınmadığı ilk aylarda o, sərbəst qiyafədə dükan-mağazalarda, istehsal müəssisələrində olur, vəziyyətlə yerindəcə maraqlanırdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının rayon partiya komitələrinə, müxtəlif nazirliklərə rəhbərlik etmiş bir şəxs kimi xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyevin 70-80-ci illərdə məmurlar qarşısında müəyyənləşdirdiyi ən ciddi tələb xalqa layiqli xidmət göstərmək, insanların inamını doğrultmaq idi. Məhz bu keyfiyyəti ilə Heydər Əliyev hələ o illərdə cəmiyyətin mənəvi bütövlüyünə nail olmuşdu.

Əzmlə, ardıcıl olaraq xalq və milli dövlət dəyərlərinə xidmət onun şəxsiyyətinin əsas cizgiləri idi. Bunu biz məmurlardan da israrla tələb edirdi. Ümummilli lider hər zaman deyirdi ki, qabaqcıl kadrları olmayan xalqın qabaqcıl dövləti ola bilməz. İqtisadiyyatda yaratdığı yeni sənaye sahələri üçün o, keçmiş Sovetlər birliyinin bütün qabaqcıl ali məktəblərində kadrlar yetişdirir, minlərlə gənci respublikadan kənara təhsilə göndərirdi. Həmin kadrlar bu gün də dövlət quruculuğu prosesinə layiqli töhfələrini verirlər.

Ümummilli lider ruhən də milli insan idi. Azərbaycanın milli-mənəvi dəyərlərinə hədsiz vurğunluğunu elə bu amildə axtarmaq lazım gəlir. "Milli" sözünün ehtiyatla işlədildiyi sovet dövründə də, Naxçıvanda yaşayanda da, müstəqillik dövründə də o, ən böyük azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən mənən zəngin bir sima idi. Dahi öndəri milli dəyərlərimiz, milli varlığımız və tarixi taleyimizlə bağlayan çoxlu möhkəm qırılmaz tellər göstərmək olar. Lakin ulu öndərin ana dilimizdə parlaq və sərrast nitqi onu əbədi olaraq millilik rəmzi kimi anmağımız üçün kifayətdir.

Onun natiqlik məharəti, nitqinin xəlqiliyi azərbaycançılığın ən parlaq təcəssümü idi. Bu gün təsəvvür belə etmək çətindir ki, sərbəst işlənən doğma ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mücadilələr aparırdı. Bu prosesin önündə isə hər zaman Heydər Əliyev addımlayır, ana dilimizin azadlığı uğrunda iki cəbhədə çalışırdı. Birinci cəbhə onun özünün ana dilində danışması idi. İkinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. O zamanlar bu mübarizəyə qoşulmaq böyük cəsarət, qətiyyət və ən əsası, vətənə, millətə, onun milli sərvətinə sonsuz məhəbbətin ifadəsi idi.

Ulu öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, mən deyərdim ki, məhz bu nitqlərin təsiri ilə başladı. Həm də mühümü odur ki, əyalətdə, xalq kütləsinin içində başladı. İnsanlar ulu öndərin ana dilində etdiyi gözəl, ifadəli çıxışlarında, onun dövlətçilik məntiqində, vətənimizi sürətlə qurub qüdrətli dövlətə çevirmək çağırışlarında doğma və müstəqil dövlətimizin ilk sədalarını eşitdilər. Sonralar ulu öndər Bakıdakı məclislərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar İttifaqının məclislərində Azərbaycan dilində parlaq çıxışlar etməyə başladı.

Onun rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratdı. Yad dildə danışan dövlət milli ola bilməz. Ona görə ulu öndərin nitqləri onun rəhbərlik etdiyi hakimiyyətə qarşı da doğmalıq hisləri yaradırdı. Dövlət məmurları anlayırdılar ki, rəhbərimizin yorulmadan qurub yüksəltdiyi Azərbaycan iqtisadiyyatı xalqımızındır və onun dövləti üçündür.

Yazıçı və sənət adamları ilə görüşəndə ulu öndər elmi-ədəbi üslubda danışırdı. Ümummilli liderin gözəl nitqi yazıçıları, alimləri, ziyalıları heyran qoyurdu. Bəs bu parlaq nitq qabiliyyəti haradan idi? Əlbəttə ki, genetik yaddaşından gəlirdi. O bu dilin parlaq təcəssümü olan bir mühitdə, sadə azərbaycanlı ailəsində formalaşmışdı. Ümummilli liderin canlı ana dilini öz nitqi ilə zinətləndirməsi onun bu sahədəki xidmətlərinin bir tərəfi idi. Bu irsin ikinci tərəfi onun rəsmi yolla ana dilimizin statusunu qaldırmaq üçün misilsiz xidmətləri idi. Onlardan ancaq birini xatırlatmaq istərdim. 1978-ci ildə Konstitusiya qəbul olunanda Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi böyük fədakarlıq idi.

O zaman təhlükəli bir nəzəriyyə ortaya atılmışdı: iddia olunurdu ki, guya sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə - sovet xalqına çevriliblər. Bu, yanlış və milli dillərə, mədəniyyətlərə qarşı yönəlmiş kosmopolit nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında görkəmli alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Onun verdiyi qeyri-rəsmi istiqamət nəticəsində yığıncaqda Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul edilməsi barədə təklif verildi. Milli ziyalı təbəqəsinin bu təklifini Moskva qulaqardına vura bilmədi. Bu qeyddən sonra ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, kino, teatr quruculuğunda milli dilin tətbiqini gücləndirmək daha asan oldu.

Məhz ulu öndərin birinci hakimiyyəti dövründə xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən filmlər kino sənətinin əsas mövzusu oldu. "Nəsimi", "Babək", "Dəli Kür" kimi filmlər gəncliyin milli ruhda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı. "İstintaq", "Qanun naminə", "Uşaqlığın son gecəsi" kimi filmlər sovet cəmiyyətinin naqis cəhətlərinin ifşası baxımından əhəmiyyətli idi.

İnamla demək olar ki, 1969-cu ildən etibarən ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlişi vüsət aldı. Ulu öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov, Anar kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Belə sənətkarlar isə ədəbiyyatın milli varlığımız, milli dəyərlərimizlə bağlı mövzularını uğurla işləyib inkişaf etdirirdilər.

Ulu öndərin irsinin ayrılmaz bir qanadı onun milli tariximizə qayğısı ilə bağlıdır. Milli keçmişimizi dərindən mənimsəmiş ulu öndər milli dövlət üçün milli tarixin və tarix elminin fundamental əhəmiyyətini gözəl bilirdi. Ona görə Nizami Gəncəvi və Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması üçün partiya qərarları verildi. O zaman bu qərarlar inqilabi bir yenilik, cəsarət nümunəsi idi.

Heydər Əliyev Sovet Azərbaycanı tarixində Nəriman Nərimanovla başlanan, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev, İsa Hüseynov kimi sırf milli ruhlu və milli ovqatlı şair, yazıçı və alimlərin fəaliyyətini qırılmaz milli xətt sayırdı. Təsadüfi deyil ki, hakimiyyətə gəldiyi vaxtdan ilk böyük yubiley 1970-ci ildə N.Nərimanova və sonradan Səməd Vurğuna həsr edildi. Onların fəaliyyəti və irsi ulu öndər üçün misilsiz dərəcədə qiymətli idi. Ulu öndər Səməd Vurğun yaradıcılığını bilir, əzbərdən ifa etməyi sevirdi. Onun "El bilir ki, sən mənimsən, yurdum, yuvam, məskənimsən" deyəndə gözlərinin yaşardığı, qəhərləndiyi videokadrları izlədikcə bunun bir daha şahidi oluruq.

N.Nərimanov şəxsiyyəti ulu öndər üçün həm də erməni fitnəkarlığına qarşı mübarizə rəmzi idi. Müstəqillik ərəfəsində qanlı-qadalı problem yenidən qarşımıza çıxdı. Ərazilər işğal olundu. Heydər Əliyev bioqrafiyasının əsas xətlərindən birini yenə də erməni fitnəkarlığına qarşı mübarizə təşkil edirdi. Respublikanın heç bir rəhbəri Azərbaycanda erməni fitnəsinə qarşı ulu öndər qədər ardıcıl və sərt mübarizə aparmayıb. O, erməni məkrini əməli işdən tanıyırdı. Vəzifə pillələrində yüksəldikcə Bakıdakı erməni mafiyasının şiddətli müqaviməti ilə rastlaşırdı. 1980-ci illərin sonlarına doğru bu proses daha miqyaslı xarakter almışdı.

Azərbaycana rəhbərlik etdiyi qərinədən artıq müddətdə o, xalqımızın milli-mənəvi dəyərlərini öz varlığında yaşadan, toxunulmaz bir xəzinə kimi qoruyan unikal şəxsiyyət olaraq tarixə əbədi həkk etdi. Fırtınalardan, qasırğalardan keçən həyatında bu torpağa rifah gətirən ulu öndər mütərəqqi insanların məhəbbəti, ehtiramı, amma cılız, paxıl, riyakar, xalq, vətən təəssübkeşliyindən uzaq olanların təqibi, şəri, böhtanı ilə üzləşdi. Fəqət sarsılmadı. "Ən böyük şəxsiyyətlər özlərindən çox mənsub olduqları cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını həsr edən insanlardır" dedi.

Ümummilli liderin baxışlar sistemində din yalnız ruhi, mənəvi dünyanın pəncərəsindən boylanır. O, dinin siyasi alətə çevrilməsinə, insanların müqəddəs inanclarının siyasi proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinə heç vaxt imkan vermədi. Bu inancları bütün siyasi proseslərin fövqündə saxladı və qorudu. Ulu öndər ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etdi. Dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışdı. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşa bu torpaq üçün milli yiyəlik hissi aşıladı. Dini tolerantlığın polietnik mövcudluğunun qarantı kimi azərbaycançılıq ideologiyasını irəli sürərək onun praktik nəzəriyyəyə çevrilməsinə nail oldu.

Müstəqilliyin ilk illərində vətəndaş tərbiyəsi ideoloji və tarixi əhəmiyyət daşıyan problem idi. Bu vacib vəzifənin həyata keçirilməsi üçün Azərbaycan vətəndaşının ideya-siyasi düşüncəsini formalaşdırmaq lazım gəlirdi. Bu istiqamətdə xeyli iş görmüş dövlət rəhbəri "Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır" deyirdi. Ulu öndərin tükənməz enerjisinə, dərin zəkasına, müdrik ağlına, dünya şöhrətinə, sarsılmaz nüfuzuna qısqanclıqla yanaşanlara, haqsız hücumlara, böhtançılara, paxıllara öz möhtəşəm ağlı ilə cavab verirdi.

Ümummilli lider xalqın milli-mənəvi dəyərlər sistemində ailənin rolunu da daim müstəsna dəyərləndirirdi. Böyük strateq ailəni eyni zamanda ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi qiymətləndirirdi: xalqın mənəvi kamillik səviyyəsinin təmin olunmasında, genofondunun saflığının qorunmasında əhəmiyyətini daim önə çəkirdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Ulu öndər Heydər Əliyevin möhkəm mənəvi təməl və niyyətlər, ülvi arzular üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda böyük rəğbət hissi doğurur. Bu ailənin ən böyük xoşbəxtliyi isə onun hər bir üzvünün cəmiyyət üçün gərəkli, faydalı şəxsiyyət olmasındadır.

Biz 26 ildir işıqlı bir yolla inamla irəliləyirik. Güvəndiyimiz, taleyimizi etibar etdiyimiz siyasi hakimiyyəti hələ 1993-cü ilin oktyabr ayında - demokratik, azad və şəffaf seçkilər vasitəsilə qurmuşuq. Ümummilli liderin həmin seçkilərdə dövlətimizin rəhbəri seçilməsi ilə müstəqil Azərbaycanın taleyində tənəzzül, anarxiya və xaos mərhələsindən inkişaf, sabitlik və tərəqqiyə doğru möhkəm körpü salındı. Ulu öndərin hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının praktik şəkildə bərqərar olmasına fundamental əsaslar yarandı. Ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, dövlətçiliyini itirmək təhlükəsindən qurtuldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün qətiyyəti və xarizması ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi. O, siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət modeli konsepsiyasını da uğurla həyata keçirməyə başladı.

Ümummilli lider xalqın təkidli istəyi ilə hakimiyyətə qayıtdıqdan dərhal sonra dövlət qulluğu üçün milli kadrların hazırlanması işini daha geniş miqyasda, sistemli şəkildə davam etdirdi. Müdrik rəhbərin idarəçilik metodu, dövlət qulluğunda üstünlük verdiyi meyarlar komandadakı müsbət əhvali-ruhiyyəni daha da gücləndirirdi. Ulu öndərin yüksək vətənpərvərliyi, ekstremal situasiyalarda düzgün və ədalətli qərarlar qəbul etmək bacarığı, tükənməz enerjisi, işgüzarlığı, intuisiyası onun rəhbərlik etdiyi komandanın çevikliyinə və işləkliyinə təkan verdi. Məmurlarda məsuliyyəti, dövlət strukturlarında şəffaflıq və hesabatlılığı gücləndirdi.

Onun Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində ilk mühüm addımlarından biri cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin edilməsi, milli ideologiyanın sistem halında təqdimatı oldu. Ulu öndər cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər - sosial bərabərsizlik, regional, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan vermədi. Bu, Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından son dərəcə vacib amil idi. 2001-ci ilin noyabrında - Dünya Azərbaycanlılarının I Qurultayında "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gun də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən ulu öndər dünya azərbaycanlılarını azərbaycançılıq ideyası ətrafında səfərbər etdi.

Ulu öndərin müdrik rəhbər olmasını təsdiq edən çoxsaylı faktlardan biri də aparılan iqtisadi islahatlar idi. O, Azərbaycanın çoxminillik tarixində torpağı kəndliyə təmənnasız olaraq bağışlayan yeganə rəhbər oldu. Hələ 1992-ci ildə Naxçıvan Ali Məclisinə rəhbərlik edərkən Heydər Əliyevin kənd təsərrüfatında kolxoz-sovxoz sisteminin xüsusi mülkiyyətə keçirilməsi ilə bağlı qəbul etdiyi qərar nəinki Azərbaycanda, ümumilikdə ittifaq miqyasında kənd təsərrüfatında ümumi mülkiyyətçiliyin ləğvinə dair ilk təşəbbüs idi. 4-5 il sonra isə ümummilli lider bu düzgün təşəbbüsünü artıq bütün Azərbaycana şamil etdi.

Onun şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. Möhtərəm Prezident İlham Əliyevin müəllifliyi ilə son 16 ildə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin yeni parlaq səhifələri yazılır. Bəli, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün də uğurla davam etdirilir. Cəmiyyət dinamik inkişaf edir, dünyada gedən proseslərə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, qanunlarında, insanların həyat tərzində, idarəçilikdə müvafiq dəyişikliklər həyata keçirilir. İnsanların təfəkkür, düşüncə tərzi hazırkı dövrün çağırışlarına uyğun olaraq yeniləşir, müasirləşir. Eyni zamanda milli özünəməxsusluq və adət-ənənələr də qorunub saxlanılır.

"Biz xalqın xidmətçisiyik" deyən Azərbaycan Prezidenti ötən 16 ildə, demək olar ki, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə nail olub. Hər bir fərdin marağına cavab verən çevik və qətiyyətli qərarlar qəbul edib. Bu gün Azərbaycan cəmiyyətinə xas nikbin ictimai ovqat, əhvali-ruhiyyə xalqın öz Prezidentinə - cənab İlham Əliyevə dərin və sarsılmaz inamından qaynaqlanır. Bu inam tarixi sınaqlardan keçməklə, dövlət başçısının son 16 ildə yürütdüyü, son 1 ildə daha geniş miqyasda davam etdirdiyi alternativsiz siyasətə söykənir. Bu inam hər addımda müşahidə etdiyimiz daha bir mühüm amildən - Prezidentlə xalqın sarsılmaz mənəvi bağlılığından qaynaqlanır.

Azərbaycanın qısa müddətdə keçdiyi yolu sözün qüdrəti ilə canlandırmaq çətindir. Biz başqa dövlətlərin onilliklər boyu can atdığı, bəzən heç əldə edə bilmədiyi, həsədlə baxdığı böyük uğurlara cəmi 15-16 ildə sahib olduq. Layiqli liderlə uzun yolu qısa müddətdə adladıq, xalq və dövlət olaraq dünya miqyasında layiqli yerimizi təmin etdik. Böyük Məhəmməd Hadi demişkən, imzalar içində imzamız göründü!

Siyasi liderin gücü onun sözünə bütövlüyü, vədinə sadiqliyi, öhdəliklərinə məsuliyyətli yanaşması ilə ölçülür. Prezident İlham Əliyev hələ 2003-cü ilin 15 oktyabr seçkiləri ərəfəsində "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" tezisini irəli sürməklə cəmiyyətə əsl məramının xalqa layiqli xidmət olacağı mesajını vermişdi. Dövlət rəhbəri ötən 16 ildə elmi əsaslara söykənən inkişaf proqramları əsasında Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi.

İlham Əliyev hələ səlahiyyətlərinin icrasına başlayarkən "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" demişdi. Ötən 15 ildə iqtisadiyyatımızın neft amilindən asılılığı əhəmiyyətli dərəcədə azalıb. Ölkəmizdə ümumi daxili məhsulun 70 faizinin məhz qeyri-neft sektorunun hesabına formalaşması da dinamik inkişafın əyani göstəricilərindəndir.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində "Azərbaycanda bir nəfər də olsun yoxsul insan olmamalıdır" deyən cənab İlham Əliyev ötən 15 ildə sosial dövlət konsepsiyasını uğurla həyata keçirdi. 2003-cü ilin statistik göstəricilərinə əsasən, həmin il Azərbaycanda yoxsulluğun səviyyəsi 44,4 faiz təşkil edirdi. Ötən illərdə həyata keçirilən tədbirlərin nəticəsi olaraq hazırda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,4 faizdən 5 faizə enib. Orta ömür uzunluğu 72,4 ildən 75,4 ilə yüksəlib.

Hökumətin fəaliyyətində ən uğurlu göstərici xalqın sosial rifah səviyyəsi ilə ölçülür. Bu fikri tam əminliklə deyirəm ki, Azərbaycan vətəndaşı heç vaxt, hətta Sovetlər birliyinin ən çiçəklənən vaxtında da indiki kimi yaxşı yaşamayıb. Statistik rəqəmlər göstərir ki, cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda əhalinin adambaşına düşən gəlirləri 7,2 dəfə, orta aylıq əməkhaqqı 6,8 dəfə, banklardakı əmanətləri 30 dəfə artıb. Azərbaycanda 2018-ci ilin sonunda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 540 manat təşkil edib.

Cənab İlham Əliyev ölkə vətəndaşı üçün fantastik görünən layihələrin müəllifidir. Azərbaycan ötən illərdə kifayət qədər iddialı görünən sosial layihələri reallaşdırmaqla qüdrətli dövlət olduğunu isbatlayıb. Əgər 15 il əvvəl kiməsə respublikamızın kosmik peykinin olacağını desəydin, bunu bəlkə də xəyal kimi qarşılayardı. Fəqət respublikamız ötən ilin sentyabrında orbitə artıq sayca üçüncü peykini buraxmağa nail olub.

Bir zamanlar Azərbaycanı kiçik, gücsüz sayıb onunla hesablaşmayanlar indi rəsmi Bakının iştirakı olmadan region əhəmiyyətli hansısa layihəni həyata keçirməyin mümkünsüz olduğunu etiraf edirlər. Ötən illərdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi neft-qaz kəmərləri layihələri uğurla reallaşdırılıb. Bakı-Tbilisi-Qars dəmiryol xətti vasitəsilə biz yaxın perspektivdə nəinki qardaş Türkiyəyə, hətta Avropanın ölkələrinə qatarla səyahət edə biləcəyik. "Əsrin müqaviləsi"nin müddətinin 2050-ci ilədək uzadılması da son 15 ilin ən mühüm uğurları sırasındadır.

2003-cü ilin prezident seçkiləri ərəfəsində "Azərbaycanda bir çadır şəhərciyi də qalmayacaq" deyən dövlət başçısı bu vədini də inamla doğrultdu. Bununla da Ermənistanın işğalçılıq siyasətindən zərər çəkmiş vətəndaşlarımızın ən böyük himayədarı olduğunu nümayiş etdirdi. Ötən illərdə məcburi köçkünlərin sosial problemlərinin həllinə və onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına 5,6 milyard manat məbləğində vəsait xərclənib. Nəticədə 7 çadır düşərgəsi, 16 fin tipli və dəmir yolu üzərindəki yük vaqonlarından ibarət 3 qəsəbə ləğv olunub.

2016-cı ili aprel ayında Azərbaycanın 2000 hektardan çox ərazisinin təcavüzkar erməni ordusundan təmizlənməsi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin Qarabağa böyük qayıdışın rəmzi kimi yenidən qurulması, Naxçıvanda Günnüt kəndinin azad edilməsi də İlham Əliyevin komandanlığında Azərbaycan Ordusunun hər an torpaqlarımızı işğaldan azad etməyə hazır və qadir olduğunu göstərir.

Ötən 15 ildə sosial-mədəni, elmi və humanitar sahələrdə aparılan islahatlar ictimai şüurda inqilabi dəyişiklikləri də təmin edib. Təkcə onu demək kifayətdir ki, son illərdə aparılan struktur islahatları Prezident İlham Əliyevin müasir və sivil idarəçilik fəlsəfəsini tam mahiyyəti ilə açır, xalqın dövlətə inamını daha da artırır. İnsanların işini asanlaşdırır, həyat səviyyəsini yüksəldir.

Son prezident seçkilərindən sonra ölkəmizdə aparılan islahatlar daha da sürətlənib. Xüsusən də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın islahatların reallaşmasında xüsusi fəallığı idarəçiliyə yeni müsbət çalarlar gətirib. Təkcə son 3 ayda dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər Azərbaycanın sosial dövlət olduğunu bir daha təsdiqləyir. Ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödənişin edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikintisi, minimum əməkhaqqının 40 faizədək artırılaraq 180 manat müəyyən edilməsi, banklara borclu vətəndaşlara, Bakının Nizami rayonunda "Diqlas" ticarət mərkəzinin yanması ilə əlaqədar sahibkarlara kompensasiya verilməsi bunun əyani göstəricisidir.

Əgər Heydər Əliyev Azərbaycanı xaos və tənəzzüldən inkişaf yoluna çıxarmışdısa, onun layiqli davamçısı - Prezident İlham Əliyev qısa müddətdə onu bütün sahələrdə sürətlə müasirləşən, yeniləşən, dünya miqyasında sayılıb-seçilən dövlətə çevirməyə nail oldu. Bəli, bu gün Azərbaycan bütövlükdə dünya məkanında öz sözünü deyir, mənafelərini lazımınca müdafiə edir.

Respublikamız dəqiq müəyyənləşdirilmiş iqtisadi strategiya nəticəsində inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Davamlı yüksəliş və tərəqqi prosesində dövlət rəhbərinə ən böyük dəstək isə məhz ölkə vətəndaşlarından gəlir.

*Bunlar həm də Heydər Əliyevin gerçəyə çevrilən arzularıdır!*

*Tariximizin son 50 illik şanlı salnaməsi - inkişaf, quruculuq, müstəqillik, milli dövlətçilik dövrü və ən nəhayət, tarixin ən qüdrətli Azərbaycanı məhz Heydər Əliyev siyasi kursunun, Prezident İlham Əliyevin müdrik fəaliyyətinin real nəticələridir!*

**Fəttah HEYDƏROV,**
***Milli Məclisin komissiya sədri, respublika Ağsaqqallar Şurasının sədri***



1923 *Azərbaycanın özü qədər əbədi* 2019

# Xalqa xidmətdə keçən ömür



*Əvvəli 1-ci səh.*

Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün şüurlu həyatını xalqına və Vətəninə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub. Onun yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb və şübhə yoxdur ki, yaxın illərdə ölkəmiz dünyanın ən güclü dövlətlərindən birinə çevriləcək. Ümummilli liderimizin fəaliyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir. Ulu öndər keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərdi. Bu, hər bir millətin inkişafında əsas şərtlərdən biridir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Onun ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan iqtisadi inkişafına görə Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) ən öndə gedən ölkələrdən birinə çevrildi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin iqtisadi, siyasi, sosial, mənəvi, psixoloji, ideoloji əhəmiyyəti var. 50 il öncə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ölkəmizi yalnız iqtisadi cəhətdən irəli aparmadı, eyni zamanda, Azərbaycan xalqının mənəvi aləmində, psixoloji durumunda, milli şüurunda böyük təkamülün, böyük dəyişikliyin yaranmasına gətirib çıxardı.

Ulu öndər Heydər Əliyev hələ SSRİ dövründə ölkəyə rəhbərlik etdiyi illərdə xalq üçün taleyüklü olan çox çətin bir missiyanı yerinə yetirdi. İctimai səviyyədə çətinliklə də olsa, mövcudluğunu qoruya bilmiş azərbaycançılıq məfkurəsini dövlət səviyyəsinə qaldırıb işğalın vurduğu zərbələrin təsiri altında müvazinətini itirmiş xalqla onun maddi-mənəvi tarixi arasında varislik əlaqələrini dirçəldib möhkəmləndirdi. Təsadüfi deyil ki, Azərbaycan cəmiyyətində bir ideologiya ilə paralel, Heydər Əliyev şəxsiyyəti də birlik və həmrəyliyin simvoluna çevrilib. Çünki məhz bu tarixi şəxsiyyətin bəsirəti sayəsində hələ SSRİ dövründə azərbaycançılığın mədəni, siyasi-ideoloji və sosial-iqtisadi əsasları yaradılıb.

Məlumdur ki, tarixi şəxsiyyətlər, o cümlədən liderlər xidmətlərinin miqyasına görə fərqli səviyyədə qəbul olunurlar. Elələri var ki, mənsub olduğu xalqın hüdudlarını aşa bilmir, yalnız öz vətənində hörmətlə yad edilir, elə simalar da var ki, onlar zaman və məkan anlayışına sığmayaraq öz xalqının təkcə sevimlisinə yox, həm də idealına çevrilir. Ulu öndər Heydər Əliyevin bütün sahələrdə qurucu istiqamət üzrə təşəbbüskar aktivliyi, strateji hədəflərə doğru qətiyyətli irəliləyişi, Azərbaycanın perspektivləri üçün yorulmaz fəaliyyəti onu başqaları üçün də örnək simaya çevirdi.

Azərbaycançı düşüncənin inkişafında və yayılmasında göstərdiyi xidmətlər, ümumiyyətlə, bənzərsiz liderlik keyfiyyətləri ilə yanaşı, bir siyasi ideoloq və strateq olaraq da Heydər Əliyev Azərbaycan coğrafiyasına yalnız bir zamana sığmayan milli və milli olduğu qədər də bəşəri şəxsiyyət kimi qəbul edilir. Ulu öndər Azərbaycan SSR-in rəhbərliyinə gələrkən çox fərqli - millilikdən get-gedə uzaqlaşan, iqtisadiyyatı tənəzzülə uğrayan və mərkəzdən tam asılı idarəçilik mexanizmi mövcud idi. Məhz Heydər Əliyevin atdığı uzaqgörən addımlar, gələcək perspektivə hesablanmış işlər Azərbaycanı fərqli məcraya yönəltdi. Xalq iqtisadi, mədəni və mənəvi tənəzzüldən qurtuldu.

Ulu öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı kimi düşən ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq onu sevir, parlaq zəkasını qiymətləndirir və öz liderinə, onun yeritdiyi siyasi kursa inanaraq ardınca gedirdi. Birmənalı şəkildə demək olar ki, Heydər Əliyev bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə milli dövlət müstəqilliyini yenidən qazandıra bilən xilaskarlıq fenomenidir. Azərbaycanın milli dövlət müstəqilliyinin yenidən bərpa olunması missiyasının Heydər Əliyev fenomeninə qismət olması, əslində, heç də təsadüfü deyildi. Çünki məhz ulu öndər hələ 1940-cı illərdən başlayaraq Sovet Azərbaycanın dövlət təhlükəsizlik orqanlarında çalışmağa başladığı zamanlarda özünün iti zəkası, güclü məntiqi, tarixi hadisələri düzgün analiz və təhlil etməsi nəticəsində bilirdi ki, zor gücü ilə, xalqları və millətləri istismar etməklə, repressiya maşınından keçirtməklə qurulmuş sovet rejiminin çox yaşaması mümkün olmayacaq. Heydər Əliyev məhz Sovet İttifaqının belə gərgin bir dövründən başlayaraq artıq Azərbaycanda istiqlaliyyət, müstəqillik, azadlıq ideyalarının baş qaldırdığını hiss etmişdi.

Daim doğma xalqının böyük təəssübkeşi olmuş Heydər Əliyev o mürəkkəb tarixi şəraitdə ölkəmizi keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmək üçün qısa müddətdə bütün sahələrdə geniş islahatlar proqramı həyata keçirməklə, əslində, gələcək müstəqil və güclü Azərbaycanın əsasını qoyurdu. Onun fədakar və məqsədyönlü fəaliyyəti nəticəsində cəmiyyətin həyatının bütün sahələrində yüksəliş və tərəqqi yaşanmışdı. Azərbaycan iqtisadiyyatı ən yüksək inkişaf səviyyəsinə çatmış, artım sürətinə görə SSRİ respublikaları arasında qabaqcıl mövqeyə çıxmışdı. Ölkəmizin müasir tarixi uğurları və inkişafı bir daha sübut edir ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı. Ümumiyyətlə, dövləti idarə etmək bəzən siyasi şansdır və bu fürsətə təsadüfi adamlar da yiyələnə bilərlər. Bunu müstəqilliyimizin bərpasının ilk illərində yaşamışıq. Amma dövləti layiqincə idarə etmək bacarığı, fəaliyyətini yalnız millətin və dövlətin maraqları üzərindən qurmaq, ömrünü xalqının rifahına fəda etmək kimi xüsusiyyətlər yalnız həqiqi liderlərə xasdır. Bu baxımdan ümummilli lider adını Azərbaycan tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil edib və yorulmaz, çoxşaxəli, zəngin fəaliyyəti sayəsində ölkəmizi sürətli inkişaf yoluna çıxarıb.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran şanlı epoxanı əhatə edir. Ümummilli liderin Azərbaycan qarşısındakı tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması, onu möhkəmləndirməsidir.

1993-cü ilin yayında Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda xalqın təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyil. Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrünə, özünün yeni, daha əzəmətli mərhələsinə qədəm qoydu. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Beləliklə, ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti ölkənin formalaşdırılmasına hesablanmışdısa, ikinci hakimiyyəti əsl qurtuluş oldu.

Ulu öndər xalqımıza qazandırdığı milli siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi üçün, ilk növbədə, Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasının mahiyyətini dərindən dərk edirdi. Heydər Əliyev neft sektoruna xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi addımların atılmasını təmin etdi, 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş bu müqavilənin imzalanması ilə respublikamızın gələcək inkişafının fundamental bünövrəsi qoyuldu. "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan verdi.

Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, o cümlədən Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi. Onun uzaqgörən siyasəti və gərgin fəaliyyəti sayəsində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində mühüm addımlar atıldı. Həyata keçirilən islahatlar nəticəsində sərbəst bazar münasibətlərinə əsaslanan və sosialyönümlü iqtisadi sistemin formalaşdırılması, ölkədə mövcud olan təbii iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu islahatlar mahiyyət etibarı ilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, iqtisadi islahatlar və dövlət quruculuğu istiqamətində də yeni mərhələnin başlanğıcını qoydu. Heydər Əliyevin müəyyən etdiyi iqtisadi model və prinsiplər bir tərəfdən liberal iqtisadiyyata keçidi, digər tərəfdən həmin mərhələdə vətəndaşların sosial müdafiəsini təmin edirdi. Ümummilli lider Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ana prinsiplərdir. Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda perspektivdə qarşımızda duran vəzifələri nəzərə alıb. Ümummilli lider Azərbaycanın söykəndiyi dəyərlərdən danışarkən deyirdi: "Yeni Azərbaycan Partiyasının demokratik, hüquqi dövlət qurmaq istiqamətində irəli sürdüyü müddəalar Azərbaycan xalqının söykəndiyi əsas prinsiplər hesab olunmalıdır".

Bu prinsiplər 1992-ci ildə YAP-ın təsis konfransında qəbul edilən proqramda öz əksini tapıb. Bu proqramda Heydər Əliyev Azərbaycan dövlətçiliyinin söykəndiyi başlıca prinsipləri qeyd edib. Onun müəyyən etdiyi dövlətçilik prinsipləri sırasında sosial ədalət prinsipi önəmli yer tuturdu. Partiyanın məqsədlərindən birini təşkil edən sosial dövlət yaratmaq ideyası sosial ədalət partiyasının əsas prinsipinə çevrilib. İnsanlar eyni ağıla, zəkaya, fiziki və mənəvi keyfiyyətlərə malik olmadığı kimi, cəmiyyətdə və həyatda da eyni mövqeyə və imkana malik deyillər. Sosial müdafiə sistemi düzgün olunmayan dövlətdə hər bir insan özünün fərdi keyfiyyətlərindən asılı olaraq hamı üçün yaradılan bərabər şəraitdən, qanun və imkanlardan məharətlə istifadə edib maddi və mənəvi tələbatlarını eyni dərəcədə ödəyə bilmir. Lakin sosialyönümlü iqtisadiyyata malik olan ölkələrdə dövlət vergi və məqsədli sosial yardım mexanizmlərindən istifadə edərək cəmiyyətin ən imkanlı təbəqələrinin imkansızlara yardımını və onların yaşayışı üçün minimum həyat şəraitinin təmin olunmasını təşkil edir. Belə cəmiyyətlərdə sosial sabitliyə nail olmaq, humanizm və ədalət prinsiplərini qorumaq dövlətin siyasətinin əsas istiqamətlərindəndir.

Müdrik dövlət xadimi olan ulu öndər Heydər Əliyev ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə edərkən deyirdi: *"Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".*

Azərbaycan müstəqilliyini bərpa etdikdən və ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə böyük rol oynamışdır. Ulu öndərin digər məsələlərdə olduğu kimi, milli-mənəvi dəyərlərimiz və dövlət-din münasibətləri ilə bağlı fikirləri bu gün də dövlətin sosial-mədəni həyatındakı siyasətinin istiqamətini müəyyən edir.

Azərbaycan tarixən dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə deyə bilərik ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində formalaşıb. Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir.

Ümummilli lider Heydər Əliyevin dövlət-din münasibətləri ilə bağlı apardığı siyasət Azərbaycanın adət-ənənələrinə və xalqın zəngin keçmişinə əsaslanıb, tarixin sınağından keçən milli-mənəvi dəyərlərimizin müasir dövrdə daha da effektivliyinə diqqəti yönəldib. Cəmiyyətdə bərqərar olan tolerantlıq və humanizm mühiti də məhz Heydər Əliyevin müdrik siyasətinin nəticəsidir. Heydər Əliyevin milli kimliyimizin formalaşmasında mühüm rol oynayan və xalqımızın mənəviyyatını zənginləşdirən İslam dininə münasibəti də özünəməxsus idi. O, İslamın insanpərvər və mütərəqqi din olduğunu vurğulayaraq deyirdi: *"Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daim xoşbəxtlik bəxş edir".*

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ümummilli liderin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıq ideologiyasıdır. Eyni zamanda, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən başlıcası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Azərbaycanın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. Bir-birini ahəngdar şəkildə tamamlayan bu iki baxışlar sistemi dövlət maraqları ilə yanaşı, milli-mənəvi dəyərlər, mədəni və etnokonfessional müstəvidə müxtəlifliklər arasında harmonik uzlaşmanı təmin etməsi ilə səciyyələnir.

Ulu öndərin digər sahələrdə olduğu kimi, dövlət-din münasibətləri, beynəlxalq əlaqələrin dinamik inkişafı sahəsində bünövrəsini qoyduğu siyasət layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə müstəqillik illərində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, o cümlədən yeni dini məbədlərin inşası, mövcud olanların əsaslı təmiri və yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər sovetlər birliyi dağılan dövrdə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-dən çoxdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırığına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdər bəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Gəncə şəhər İmamzadə ziyarətgahı yenidən bərpa edilərək xalqın istifadəsinə verilib. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və ölkənin ən böyük məscidi olan Heydər məscidinin 26 dekabr 2014-cü ildə açılışı olub.

Dövlət başçısının qədim və tarixi əhəmiyyəti olan dini ocaqların bərpasına diqqətlə yanaşmasının nəticəsində ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi də "İslam həmrəyliyi ili"ndə cənab Prezidentin göstərişi ilə bərpa edilərək istifadəyə verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 2017-ci il 24 yanvar tarixli sərəncamı ilə Böyük Qayıdış prosesinə start verildi. Qısa müddətdə Cocuq Mərcanlı kəndi Böyük Qayıdışın başlanğıcı kimi bütün dünyaya səs saldı. Erməni işğalçılarına qarşı cəbhənin ön səngəri olan Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər çərçivəsində Prezident İlham Əliyevin tapşırığına əsasən, kənddə Şuşa məscidinin bənzəri olan məscidin inşası da ictimai, siyasi, mənəvi və ideoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlət başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında fədakarlıq nümayiş etdirir.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə, onun tərkib hissəsi olan dözümlülük və birgəyaşayış ənənəsinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkədə ibadət evlərinin bərpası və yeni məscidlərin tikilməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində təkcə ölkədə yeni məscidlər inşa etməyib, həm də bu torpaqlarda yüzilliklər boyu xalqımızla dinc yanaşı yaşamış dinlərin nümayəndələrinin öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək üçün ibadət evlərinin bərpası və inşası işində fəallıq nümayiş etdirib.

Ölkəmizdə dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün müstəqil Azərbaycan məhz ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyir, özünün sabit və davamlı inkişafı ilə bölgədə liderliyini möhkəmləndirir, dünyada nüfuzunu durmadan artırır.

Fəxrlə deyə bilərik ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

*Daim xalqımızın milli-mənəvi dəyərlərinin mütərəqqiliyini vurğulayan dövlət başçısı İlham Əliyev gələcək inkişafımızı zəngin tarixi keçmişə söykənən adət-ənənələrimizlə müasir ideyaların sintezində görməklə, ölkəmizdə milli-dini dəyərlərin qorunub saxlanılması istiqamətində ardıcıl işlər həyata keçirir.*

**_Mübariz QURBANLI,_**
**_Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,_**
**_YAP icra katibinin müavini_**




# Ümidlərin gerçəkləşən ünvanı



Azərbaycanda səhiyyənin inkişafı, onun maddi-texniki bazasının gücləndirilməsi dövlətin daim diqqət mərkəzində saxlanılır. Səhiyyə xidmətinin ən müasir səviyyəyə çatdırılması, bu sahənin daha da təkmilləşdirilməsi, müasir tibb ocaqlarının inşası və mövcud tibb müəssisələrinin əsaslı bərpası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Son 16 ildə Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğısı nəticəsində səhiyyə sistemində uğurlu islahatlar aparılıb, tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı daima gücləndirilib, ümumilikdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib desək, yanılmarıq. Elə bu illər ərzində 600-dən çox tibb müəssisəsinin tikilib və əsaslı təmir edilməsi bunu təsdiqləyir. Bu gün respublikanın əksər şəhər və rayonlarında müasir avadanlıqlarla təchiz edilmiş xəstəxanalar fəaliyyət göstərir.

Bununla yanaşı, cənab Prezidentin təşəbbüsü ilə Azərbaycanda pulsuz tibbi müayinə həyata keçirilir. Hər il beş milyon ölkə vətəndaşı bu xidmətdən istifadə edir.

Ümumiyyətlə, ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar uğurlu nəticələr verməkdədir. Son illərdə səhiyyə sistemi ilə bağlı 16 dövlət proqramının qəbul edilməsi dövlətin bu sahəyə nə qədər böyük önəm verdiyini təsdiqləyən faktdır. Həmin proqramların həyata keçirilməsi üçün bu ilin dövlət büdcəsindən ayrılan xərclər 233 milyon manat təşkil edir. Bu, 2018-ci ilin göstəricisindən 53 faiz artıqdır.

2019-cu ildə səhiyyə sahəsinə ayrılan xərclər (1 milyard 48 milyon manat) ötən ilin müvafiq xərclərindən 309 milyon manat, yəni 41,8 faiz çoxdur.

İkinci elə bir MDB ölkəsi yoxdur ki, dövlət tərəfindən səhiyyə sahəsi ilə bağlı bu qədər sənəd qəbul edilsin. Bütün bunlar əhalinin sağlamlığının qorunması, dövlətin vətəndaşının qayğısına qalmasının real təzahürüdür.

Lakin ölkə vətəndaşlarına göstərilən qayğı bununla bitmir. Xəstələrə diqqət və qayğıdan söhbət açanda Heydər Əliyev Fondunun və fondun rəhbəri, Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın bu sahədəki yorulmaz fəaliyyəti xüsusi vurğulanmalıdır. Xəstə uşaqlarla bağlı Heydər Əliyev Fondu tərəfindən təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində həyata keçirilən tədbirlər əsl mərhəmət və humanistlik nümunəsidir.

Ümumiyyətlə, səhiyyə sahəsi 15 il öncə, 2004-cü ilin may ayının 10-da yaradılan Heydər Əliyev Fondunun fəaliyyətinin prioritetlərindən biridir. Əsas məqsədi ulu öndər Heydər Əliyevin Vətən, xalq üçün göstərdiyi xidmətlərini, onun ümumbəşəri ideyalarını, zəngin irsini təbliğ etmək, gənclər və gələcək nəsillər üçün qoruyub saxlamaq olan fondun çoxşaxəli fəaliyyətinin öncül istiqamətlərindən biri cəmiyyətimizdə yardıma ən çox ehtiyacı olan insanlara diqqət və qayğıdır. Bu, ilk növbədə, qaçqın və məcburi köçkün ailələri, uşaq evləri, internat məktəblərində tərbiyə alan uşaqlar və əlbəttə, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlardır. Fond 15 il ərzində bu istiqamətdə bir neçə böyük layihə həyata keçirib və xeyirxah missiya bu gün də davam etməkdədir.

Bu bir həqiqətdir ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 15 ildə fondun həyata keçirdiyi layihələrin mahiyyəti onilliklərdə görüləcək işlərə bərabərdir. Fond daha çox gələcəyə hesablanmış addımlar atmağı bacarır və təşkilatın diqqət yetirdiyi sahələr cəmiyyətin olduqca həssas qütbləridir. Öz fəaliyyətini müasir zamanın tələbinə cavab verən şəkildə qurmağa - cəmiyyətdə olan, insanları narahat edən problemləri aşkar etməyə, bu problemlərin həlli yolunda lazımi tədbirləri hazırlamağa, həyata keçirməyə və uğurlu nəticələri əldə etməyə çalışan fondun fəaliyyətinin əsas istiqamətləri sırasında səhiyyənin mühüm yer tutması qətiyyən təsadüfi deyil.

Yarandığı gündən müxtəlif xəstəliklərdən əziyyət çəkən gənclərin, uşaqların qayğısına qalan fond minlərlə insana şəfa bəxş edib. Bunları təsdiqləyən kifayət qədər faktlar var. Məsələn, şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərə qayğı fondun fəaliyyətində mühüm yer tutur. Çünki bu gün dünyada ürək-damar və onkoloji xəstəliklərdən sonra insanlar daha çox şəkərli diabetdən əziyyət çəkirlər. Yəni bu, dünyada ən geniş yayılmış üçüncü xəstəlik hesab olunur. Ötən il Azərbaycanda dövlət büdcəsindəki səhiyyə xərclərində şəkərli diabet xəstələri üçün 36 milyon manat vəsait ayrılmışdı. Bu ilin dövlət büdcəsində isə həmin rəqəm 8 milyon artırılaraq 44 milyon manata yüksəlib. Hətta bundan başqa, şəkərli diabetin fonunda böyrək çatışmazlığından əziyyət çəkən, hemodializ şöbələrində müalicə alan xəstələr üçün ayrıca 15 milyon manat vəsait ayrılıb. Heydər Əliyev Fondu bu xəstəlikdən əziyyət çəkən insanların zəruri preparatla təmin olunması, xüsusən də şəkərli diabet xəstəliyinə tutulmuş uşaqlar üçün müxtəlif layihələr həyata keçirir. Bütün bunlar şəkərli diabet xəstələrinin səhhətini yaxşılaşdırmaq və pasiyentləri müasir müalicə vasitələri ilə təmin etmək məqsədi daşıyır. Bu nəcib layihələrin reallaşmasında əsas məqsəd ictimaiyyətin, milli və xarici şirkətlərin diqqətini uşaqların sağlamlığının qorunması məsələlərinə yönəltməkdir.

Səmərəli tibbi xidmətin təşkilini vacib hesab edən fond 2004-cü ildən başlayaraq "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində hər il şəkərli diabet xəstəliyindən əziyyət çəkən uşaqları insulin preparatları və şpris-qələmlərlə təmin edir. Ötən illər ərzində fonda müraciət edən insanlara köməyin göstərilməsi üçün səhiyyə müəssisələri ilə sıx əlaqə qurulub, minlərlə insanın müayinə və müalicəsi məqsədilə lazımi tədbirlər görülüb.

Xroniki böyrək çatışmazlığı xəstəliyindən əziyyət çəkən insanların müalicəsində rolu olan aparatların Azərbaycana gətirilməsi də məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə baş tutub. Bu gün xəstəxanalarda hemodializ mərkəzlərində xəstələr pulsuz olaraq müalicə alırlar. Bir sözlə, fond tərəfindən hemodializ aparatlarının xəstəxanalara verilməsi xroniki böyrək çatışmazlığından əziyyət çəkənlərin vəziyyətini yüngülləşdirir.

Fondun səhiyyə sahəsində həyata keçirdiyi mühüm layihələrdən biri də "Talassemiyasız həyat"dır. Bu xəstəlikdən əziyyət çəkən insanların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələləri həmin layihə üzrə görülən işlərin əsas istiqamətləridir. Problemin ciddiliyini nəzərə alan fond Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılması, ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişafı, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsi və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsi məqsədilə Bakıda Talassemiya Mərkəzi inşa edib. Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın mütəmadi olaraq bu mərkəzə baş çəkmələri, xəstələrin durumu ilə maraqlanmaları deyilənləri bir daha təsdiqləyir.

Bununla yanaşı, fondun təşəbbüsü ilə anadangəlmə ürək qüsurundan əziyyət çəkən uşaqların müayinə, müalicə və əməliyyatı ilə bağlı davamlı olaraq aksiyalar keçirilir. Valideyn himayəsindən məhrum olan uşaqları hər zaman diqqətdə saxlayan fond Azərbaycanın xoşbəxt gələcəyinin təmin olunması istiqamətində böyük işlər görür. Mehriban xanım Əliyevanın valideyn qayğısından və himayəsindən məhrum olmuş uşaqlara sevgisi müasir Azərbaycan tarixində ayrıca sütunla yazılıb. Fəaliyyətində humanist dəyərlər birinci yerdə dayanan fondun təşəbbüsləri və həyata keçirdiyi layihələrin bir çoxu valideyn himayəsindən məhrum olmuş uşaqların firavanlığına, onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Bu gün ölkəmizdə kimsəsiz uşaq deyəndə hər kəsin gözü önünə onların himayədarı kimi Mehriban xanım Əliyeva gəlir. Uşaqlarin iş və mənzillərlə təmin olunması üçün fond bir çox layihələr həyata keçirir.

Heydər Əliyev Fondu Azərbaycan ilə yanaşı, dünyanın müxtəlif ölkələrində təhsil, mədəniyyət, səhiyyə sahələrində layihələr, xeyriyyə tədbirləri həyata keçirir. Dini tolerantlığın hökm sürdüyü Azərbaycanda fond tərəfindən həyata keçirilən layihələr çərçivəsində çoxlu sayda dini məbədlər, eləcə də tarixi-memarlıq abidələrinin bərpası reallaşdırılıb, mütəmadi olaraq multikulturalizmi və tolerantlığı təbliğ edən elmi konfranslar və forumlar keçirilir.

*Bütün bunların mərkəzində əlbəttə ki, xeyirxahlıq, qayğıkeşlik və insanpərvərlik amili durur. Məhz ona görə də Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva xoşməramlı missiyası, uğurlu fəaliyyəti ilə xeyirxahlıq mücəssəməsi kimi tanınır.*

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
***Milli Məclisin deputatı,***
***tibb elmləri doktoru,***
***professor***





















# Mərhəmətin izi ilə

*Bir evə getmişdik rahat, isti, səliqəli, yataqları yumşaq, yeməkləri ləzzətli...*

*O qədər oyuncaq var idi ki, elə bil nağıl dünyasının içindəyik...*

*Uşaqların ehtiyacı olan hər şey var burada, amma yenə də nə isə çatmır...*

*Bu evin sakinləri hər gələn zəngin o başında atasının, hər açılan qapının arxasında anasının olacağını ümid edir, bunu çox istəyirlər, amma...*

*Uşaq evindən danışırıq, atılmış, tərk edilmiş, imtina olunmuş uşaqların yeganə ümid yerindən...*

*1 saylı uşaq evindəydik...*

## Şəfqətli ana

Bu uşaqlar da deyir, gülür, sevinir, şənlənir, amma diqqətlə nəzər yetirdikdə, hər birinin gözlərinin dərinliyində məlul bir həsrətin gilələnib, hər an ürəklərinə süzüləcəyini görürsən...

Amma onların bu nisgilini, qəhərini ovudacaq xeyirxah missiyalı bir insan da var. Kimsəsizlərin ən böyük himayədarı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva...

Mehriban xanım valideyn himayəsindən məhrum uşaqların mənəvi anasıdır. Ölkəmizdəki uşaq evlərində görülən bütün işlər, əldə olunan nailiyyətlərin hamısı Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Bu uşaqlar Mehriban xanımın daim nəzarətində, şəxsi himayəsindədir.

"Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini rəhbər tutaraq, heç zaman diqqətini onlardan əskik etmir Mehriban xanım Əliyeva.

İşlərinin çox olmasına baxmayaraq, hər zaman bu uşaqların taleyi ilə maraqlanır, onlara baş çəkir, bir ana kimi tövsiyələrini verir. Onların şad günlərində iştirak edir, qol götürüb oynayır, hədiyyələr verir, evlə, işlə təmin edir, bir an belə valideyn əskikliyini duymalarını istəmir...

Bununla yanaşı, hər dəfə vurğulayır ki, heç nə ata-ana məhəbbətini əvəz edə bilməz, buna görə də insanları bu məsələdə daha məsuliyyətli və daha həssas olmağa çağırır.

Kimsəsizlər evinin balaca sakinləri isə deyirlər ki, Mehriban xanımın diqqəti, mehribanlığı, qayğıkeşliyi sayəsində analarının yoxluğunu o qədər hiss etmirlər. Buna görə də hər zaman qürurla söyləyirlər ki, "biz kimsəsiz deyilik. Heç himayədarı Mehriban xanım olan uşaq kimsəsiz ola bilərmi?!"

## Günəşin övladları

*Günəş kimi işıq saçırlar...*

*Parlaqdırlar, sevimlidirlər, hamısı da bir-birinə bənzəyir...*

*Bir ömür boyu - ən çox da 30 il məhrumiyyətlərlə yaşayırlar...*

*Heç böyümürlər, elə uşaq kimi, saf, gülərüzdürlər, ətrafa müsbət enerji saçırlar...*

*Axı onlar "Günəşin övladları"dırlar...*

*Amma daha çox daun sindromlu insanlar kimi tanınırlar...*

*Onlar da sevinir, qüssələnir, kədərlənir, darıxır, inciyirlər...*

*Həm də sevirlər, bunu hiss etdirməyə çalışırlar və sevildiklərinin də fərqində olurlar...*

Daun Sindromlu Uşaqların reabilitasiya mərkəzindəydik...

Mehriban xanım heç böyüməyən bu uşaqların da qayğıkeşi, sevimli himayədarıdır...

Reabilitasiya mərkəzi 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Daim uşaqlara qayğı və sevgisini əsirgəməyən Mehriban xanım Əliyevanın xüsusi nəzarətində olan mərkəzdə qeydiyyata düşən ürək, görmə və eşitmə qüsurlu daunlu uşaqlar paytaxtın müxtəlif klinikalarında dövlət hesabına müalicə və əməliyyat etdirilir. Bundan başqa, mərkəzdə mütəmadi olaraq daunlu uşaqlar üçün tədbirlər, bayram şənlikləri təşkil olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva vaxtaşırı mərkəzi ziyarət edir, onlar üçün təşkil olunan xüsusi bayram şənliklərinə qatılır.

Heydər Əliyev Fondu tərəfindən daunlu uşaqlara göstərilən diqqət, qayğı sayəsində onların da sosial həyata dönüşü sürətlənib, sağlıq durumları normallaşıb.

## Talassemiyasız həyata doğru...

*Burada uşaqlar da var, yeniyetmələr də, gənclər də...*

*Daş kimi donuq üzlər, heysiz bədənlər, çarəsiz döyünən ürəklər...*

*Amma onların hər birinin üzündə təbəssüm var, gözlərinin dərinliyində ümid qığılcımları parlayır...*

*Mehriban xanım talassemiyadan əziyyət çəkən bu uşaqlara da dayaq olub, onlara bu dünyada yaşamaq, daha çox həyata tutunmaq şansı qazandırıb...*

Talassemiya Mərkəzindəydik...

Heydər Əliyev Fondunun ölkəmizdə talassemiya ilə bağlı həyata keçirdiyi işlər, layihələr, mərkəzin tikilməsi, qan bankının yaradılması, nəinki talassemiyalı insanların vəziyyətinin yaxşılaşdırılmasına, hətta yaxın zamanlarda Azərbaycanda talassemiyasız həyata nail olmağa yönəlib...

## Pənah ünvanı

*Ətrafımızda çoxlu uşaqlar var...*

*Bəziləri oynayır, bəziləri gülür, bəziləri isə öz dünyalarına çəkilərək hey susurlar...*

*Danışmaq istəyirik, amma...*

*Nəzərləri daim yayğındır, göz təmasından qaçırlar, bəzən də çox aqressivdirlər...*

*Onlar autizmlidirlər və bir ömür boyu bu sağalmaz dərdlə yaşamağa məhkumdurlar...*

Psixi Sağlamlıq Mərkəzindəydik...

2 övladı autizm olan Arifə adlı çarəsiz ana ilə həmsöhbət oluruq: "Böyük oğlumun 16 yaşı var, amma öz yaşıdlarından geri qalıb, nə danışa, nə də müstəqil hərəkət edə bilir, autizm xəstəsidir. İkinci qızım da bu xəstəlikdən əziyyət çəkir. Çox çarəsiz idim. Rayonda yaşadığım üçün uşaqların müalicəsi çox çətin idi. Amma ümidimin, gücümün tükəndiyi anda Heydər Əliyev Fondu, Mehriban xanım qolumdan tutdu. Uşaqlarımın müalicəsi üçün bizi bura, Psixi Sağlamlıq Mərkəzinə göndərdi, onlara çox minnətdaram..."

## Uşaqları bəxtəvər görmək istəyi

İl boyu yuxarıda sadalanan ünvanlarda olmuş, materiallar hazırlamışıq? Hər birində uşaqların fərqli dünyası, taleləri ilə qarşılaşmışıq. Amma dəyişməyən, fərqli olmayan yalnız onlara göstərilən qayğı və diqqət, Mehriban xanım Əliyevanın şəxsi nəzarəti ilə Heydər Əliyev Fondunun gördüyü müstəsna işlər olub...

Biz cəmi 4 zümrənin təmsilçiləri ilə həmsöhbət olmuş, onları əhatə edən qayğının şahidinə çevrilmişik, amma bunlar Heydər Əliyev Fondunun bu və digər istiqamətlərdə həyata keçirdiyi işlərin dəryada damla misalıdır...

Bu gün həyatdan ümidi üzülən körpələrin yaşam şansı, kimsəsiz uşaqların himayədarı, çarəsi tükənən anaların, nənələrin dayağıdır Mehriban Əliyeva...

Elə bu yaxınlarda Şamaxıda zəlzələ bölgəsində evi qəzalı vəziyyətdə olan 87 yaşlı Humayın nənəyə olduğu kimi: "Yaş yarımlıq nəticəmin böyrəyində ciddi problem vardı. Bir böyrəyi tamamilə sıradan çıxmışdı. Heydər Əliyev Fonduna müraciət etdik. Birinci vitse-prezident bizə yardımçı oldu və nəticəm ölümdən qurtuldu. Tanrı Prezidentimizi, onun təmiz qəlbli, insansevər həyat yoldaşını qorusun".

*Bu cür misalların sayı on minlərlədir...*

*Mehriban xanım əvəzsiz bir mərama söykənib: Azərbaycan uşaqlarını bəxtəvər görmək istəyir.*

*İstəyir ki, bütün uşaqlar xoşbəxt olsun, gözlərində heç zaman yaş gilələnməsin, üzlərində kədər cığır salmasın...*

*Və bu ali və bəşəri missiyaya da nail olur...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dövlət təhsil müəssisələrinə lisenziyalar pulsuz veriləcək

Dövlət məktəbəqədər təhsil müəssisələri və ümumi təhsil müəssisələrinə lisenziya verilməsinə görə dövlət rüsumu alınmayacaq.

Hazırda qüvvədə olan qanun layihəsinə görə, məktəbəqədər təhsil müəssisələri lisenziya verilməsinə görə 1250 manat, ümumi təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) isə 10 000 manat dövlət rüsumu ödəməlidirlər.

Bu, "Dövlət rüsumu haqqında" qanuna təklif edilən yeni dəyişikliklərdə öz əksini tapıb. Sənəd dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılıb. Komitə sədri Ziyad Səmədzadə gündəliyə daxil olan 8 məsələni təqdim edərək bildirib ki, hər bir sənədə vacib dəyişikliklər təklif edilir.

"Dövlət rüsumu haqqında" qanuna təklif edilən digər dəyişikliklər isə ali, ümumi və məktəbəqədər təhsil müəssisələrinin akkreditasiyası ilə bağlıdır. Belə ki, bu müəssisələrin akkreditasiyadan keçirilməsinə görə rüsum tutulacaq. Qanun layihəsinə əlavə edilən 32-1 maddəsinə əsasən, akkreditasiyadan keçirilmə ilə əlaqədar məktəbəqədər təhsil müəssisələrindən 3000 manat, ümumi təhsil müəssisələrindən 5000 manat, məktəbdənkənar təhsil müəssisələrindən 7000 manat, peşə təhsili müəssisələrindən 10 000 manat, orta ixtisas təhsili müəssisələrindən 15 000 manat, ali təhsil müəssisələrindən 20 000 manat, təhsil fəaliyyətini həyata keçirən digər müəssisələrdən 15 000 manat dövlət rüsumu tutulacaq.

Sonra iclasda "Texniki tənzimləmə haqqında" qanun layihəsinin ikinci oxunuşda və "Standartlaşdırma haqqında" qanun layihəsinin üçüncü oxunuşda müzakirələri başlanılıb. Layihələr barədə məlumat verən Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru Namiq Tağıyev bildirib ki, 4 fəsil 18 maddədən ibarət olan qanun layihəsi insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsi, istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, eləcə də istehsal metodları üzrə texniki tənzimləmənin məqsəd və prinsiplərini, tətbiqi qaydalarını müəyyən edir. Texniki tənzimləmə ilə bağlı sənəd dünyanın ən qabaqcıl ölkələrinin təcrübəsinə istinad edilərək hazırlanıb. "Standartlaşdırma haqqında" qanun layihəsi ötən iki oxunuşun müzakirələrindən sonra daha da təkmilləşdirilib.

Müzakirələrdə çıxış edən deputat Əli Məsimli qanun layihəsinin kifayət qədər mükəmməl hazırlandığını və bir çox mühüm məsələləri özündə əhatə etdiyini diqqətə çatdırıb.

İclasda "Hesablama Palatası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirəyə çıxarılıb. Təklif olunan dəyişikliyə əsasən Hesablama Palatasının fəaliyyət istiqaməti genişləndirilir. Palatanın fəaliyyət istiqamətləri ilə bağlı qanunun 6.0.2. bəndinə təklif olunan dəyişikliyə görə, bu qurum büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi və Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar da daxil olmaqla, icmal büdcəsinin, o cümlədən dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair rəy verəcək. Təklif olunan digər dəyişikliyə görə, Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxması və inzibati tənbeh tətbiq etməsi hüquqları ləğv edilir.

Qısa müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# Çoxmədəniyyətlilik Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir

## V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bildirildi ki, Bakıda tərəfdaşlıq, əməkdaşlıq ruhu, böyük imkanlar var

*Əvvəli 1-ci səh.*

Plenar iclaslarda "Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması", "Gənclərdən nə öyrənə bilərik: sülhü təşviq etmək və müxtəlifliyi əhatə etmək məqsədilə inklüziv yanaşmaların müzakirəsi", "BMT sistemində sülh naminə çoxtərəflilik və diplomatiyanın gücləndirilməsi", "Gənclərin məşğulluğu və peşə təhsili: ayrı-seçkilik və bərabərsizlik əleyhinə innovativ yanaşmalar", "Bərabər vətəndaşlıq hüquqlarının dəstəklənməsi üçün daha böyük mənəvi yaxınlaşma istiqamətində irəliləyək", "Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi" kimi ümumbəşəri mövzular diqqət mərkəzində saxlanıldı.

Mayın 3-də forum çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil edən "Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti" mövzusunda növbəti sessiya keçirildi. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycandakı multikultural mühit barədə məlumat verildi. BBMM-in Himayəçilik Şurasının sədri Kamal Abdullayev multikulturalizmin Azərbaycanın dövlət siyasəti olduğunu vurğuladı. Qeyd edildi ki, Azərbaycanda dinlərarası harmoniya, eləcə də qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur. Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslamla yanaşı, digər dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının fikrincə, multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanda yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, həm də bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır.

Tədbir iştirakçıları Azərbaycanın multikulturalizm ənənələri barədə sessiyada ətraflı məlumatlandırıldı. Ölkəmizdə mövcud müxtəlif dini icmalar, dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə dövlət siyasətindən bəhs edildi.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Los-Anceles Xristian Dini Mərkəzinin rəhbəri, yepiskop Xuan Karlos Mendez, Kolumbiya ştatının Vaşinqton Hüquq Assosiasiyasının məsləhətçisi Janna Skot və başqaları ölkəmizdəki multikulturalizm mühitinin bütün dünyaya nümunə olduğunu xüsusi qeyd etdilər. O da vurğulandı ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Bu isə dövlət siyasətinin tərkib hissəsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Dövlət Sərhəd Xidmətinin rəisi gürcüstanlı həmkarı ilə sərhəddəki vəziyyəti müzakirə edib



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin və Gürcüstan Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin başçılıq etdiyi nümayəndə heyətlərinin "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində dövlət sərhədində işçi görüşü keçirilib.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, görüş zamanı Azərbaycan-Gürcüstan dövlət sərhədində əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə qarşı təhdidlərlə birgə mübarizə aparılması, məlumat və təcrübə mübadiləsinin davam etdirilməsi, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər ikitərəfli əməkdaşlığın inkişaf dinamikasını müsbət qiymətləndirib, Azərbaycan və Gürcüstan sərhəd qurumları arasında mövcud münasibətlərin səviyyəsinin dövlət sərhədində qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə məsələlərin birgə həll edilməsinə töhfə verdiyini vurğulayıblar.

***"Azərbaycan"***

# İlham Əliyev yeni inkişaf strategiyası üçün çox mühüm tələblər müəyyən edib

*Əvvəli 1-ci səh.*

*- Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin 52 faizi icra edilib, 11 faizi qismən icra edilib və 37 faizin icrası gözlənilir;*

*- Kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsinin 47 faizi icra edilib, 16 faiz işlər qismən icra edilib və 37 faizin icrası nəzərdə tutulur;*

*- Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulan işlərin 37 faizi icra edilib, 7 faiz qismən icra edilib və 56 faizin icrası gözlənilir;*

*- Logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsinin 27 faizi icra edilib, 10 faizi qismən icra edilib və 63 faizin icrası gözlənilir;*

*- Uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsinin 66 faizi icra olunub, 16 faizi qismən icra edilib və 18 faizin icrası gözlənilir;*

*- Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsinin 33 faizi icra edilib, 12 faizi qismən icra edilib və 55 faizin icrası gözlənilir;*

*- Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsinin 47 faizi icra edilib, 8 faizi qismən icra edilib və 45 faizin icrası gözlənilir;*

*- İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinin 30 faizi icra edilib, 7 faizi qismən icra edilib və 63 faizin icrası gözlənilir.*

Strateji yol xəritələrində əsas icraçı qurumların performansı da faiz nisbəti ilə göstərilib. Belə ki, icranı Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya 100 faiz, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 100 faiz, Vergilər Nazirliyi 95 faiz, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 93 faiz, "Azərişıq" ASC 81 faiz, Mənzil İnşaatı Dövlət Agentliyi 79 faiz, Dövlət Statistika Komitəsi 75 faiz, Maliyyə Bazarlarına Nəzarət Palatası 68 faiz, SOCAR 68 faiz, "Azərsu" 63 faiz, Maliyyə Nazirliyi 55 faiz, Əmlak Məsələləri Dövlət Komitəsi 53 faiz, Mərkəzi Bank 52 faiz, İqtisadiyyat Nazirliyi 46 faiz, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi 44 faiz və digər qurumlar isə ortalama 47 faiz həyata keçirib.

Onu da əlavə edək ki, strateji yol xəritələrinin əsas tədbirlərinin təqribən 40 faizi İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinin payına düşür ki, bu məsələlərə sistemli yanaşılması, çoxsaylı komissiyaların, əlaqələndirici qrupların monitorinq qurumları ilə birgə fəaliyyəti həm hər iki nazirliyin, həm də digər qurumların birgə fəaliyyəti ilə xəritələrdə bu uğura imza atmağa imkan verib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mədəniyyət naziri Lənkəranda vətəndaşlarla görüşüb

Yerlərdə tarixi abidələrin qorunması və tədqiq edilməsi, uşaq musiqi məktəblərinin, mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması, kitabxana fondlarının zənginləşdirilməsi kimi bu və digər məsələlər mədəniyyət naziri Əbülfəs Qarayevin mayın 7-də Lənkəran şəhərində vətəndaşlarla görüşündə səsləndirilib.

Ölkə başçısının müvafiq tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda əhali ilə görüşləri keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayev Lənkəran şəhər Mədəniyyət Mərkəzində Lənkəran, Astara və Lerik rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

***AZƏRTAC***

# "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası çərçivəsində səyyar xidmət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanının icrası ilə bağlı işlər daha da genişlənib. Ölkə rəhbərinin tapşırıqlarına uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi fəaliyyətini insan amilinin gücləndirilməsi istiqamətində həyata keçirir. Komitə buna uyğun olaraq "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası çərçivəsində daha bir istismara icazə verilən binada - vətəndaşların yaşadıqları ünvanda səyyar xidmət göstərib. Belə ki, mayın 7-də Bakının Nərimanov rayonunda yerləşən istismara icazə verilmiş yeni çoxmərtəbəli bina sakinlərindən ilkin sənədlər toplanıb.

Məqsəd vətəndaş məmnunluğunun təmin edilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, vətəndaş-məmur ünsiyyətinin azaldılması, o cümlədən vaxt itirmədən rahatlıqla əmlakların rəsmi qeydiyyata alınmasıdır. Həmçinin qeydiyyat prosedurlarının sadələşdirilməsi, sosiallıq prinsipinin təmin edilməsi əsas vəzifələrdəndir.

"Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası çərçivəsində 90-a yaxın sakindən birbaşa olaraq yaşadıqları yerdə əmlaklarına dair ilkin sənədlər toplandı. Eyni zamanda belə bina sakinləri üçün daşınmaz əmlakın qeydiyyatı ilə bağlı maarifləndirmə tədbiri də keçirilib. Maarifləndirmə çərçivəsində vətəndaşlara bildirilib ki, artıq mənzil sahibləri çıxarışlarını kağız formasında deyil, elektron qaydada əldə edəcək. Həmin mülkiyyət sənədi şəxsin "Elektron hökumət" portalına yerləşdiriləcək. Çıxarışlar barədə bütün məlumatlar şəxsin telefon nömrəsinə və elektron poçt ünvanına göndəriləcək. Elektron qaydada göndərilən informasiyada çıxarışın reyestr, qeydiyyat nömrələri, elektron çıxarışın yoxlanılması ilə bağlı keçid linki göstərilir.



Qeyd edilməlidir ki, müvafiq fərmanın imzalanma tarixindən bu günə kimi bir neçə yeni binada yerləşən 315 mənzilə dair çıxarışlar sahiblərinə təqdim edilib. Həmin binalar Bakının Səbail, Nəsimi, Yasamal, Xətai, Nərimanov, Nizami rayonlarında yerləşir.

Məlumat üçün bildirilməlidir ki, adıçəkilən fərmanın icra mərhələsində vətəndaşlar həm mobil ofislərə, həm də öz istəklərinə uyğun olan müvafiq quruma müraciət etməklə mənzillərini operativ qaydada qeydiyyata aldıra və sənədlərini əldə edə bilərlər. Proses davamlı olaraq həyata keçiriləcək.

***"Azərbaycan"***

# Azərbaycanın Rusiyadakı səfirliyi ermənilərin təxribatının qarşısını alıb

Son günlər sosial şəbəkələrdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) erməni tələbə təşkilatı tərəfindən mayın 7-də "Qarabağ müharibəsinin fədailəri" ilə "Şuşanın azad edilməsi günü"nə həsr olunmuş görüş keçirilməsi barədə informasiya yayılıb.

Azərbaycanın Rusiyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məlumatlarda MDU həmin tədbirin tərəfdaşı kimi təqdim olunub.

Bununla əlaqədar olaraq Azərbaycanın Rusiyadakı səfirliyi MDU rəhbərliyinə müraciət edib və bu mötəbər ali məktəbin həmin hadisəyə aidiyyəti olmaması, habelə bütövlükdə ali məktəbdə buna bənzər tədbirlərin keçirilməsinin yolverilməzliyi barədə birmənalı cavab alınıb.

Eyni zamanda, bu məsələdə səfirliyin narahatlığını nəzərə alan universitetin rəhbərliyi



tədbirin təşkilatçıları ilə söhbət aparıb. Nəticədə tədbir barədə informasiya sosial şəbəkələrdən silinib.

Fürsətdən istifadə edərək, səfirlik öz vətəndaşlıq mövqeyini nümayiş etdirdiklərinə görə Rusiyadakı Azərbaycan ictimaiyyətinin nümayəndələrinin hamısına təşəkkür edir.

# Naxçıvan Qarnizonunda növbəti təlim-metodiki toplantı keçirilib

Naxçıvan Qarnizonunda tabor, divizion komandirləri və onların müavinləri ilə növbəti təlim-metodiki toplantı keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, toplantıya cəlb edilmiş zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktiki vərdişləri, gecə şəraitində sürücülük və atəş bacarıqları yoxlanılıb.

Müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman zabitlər yüksək nəticə göstəriblər. Dörd gün davam edən toplantının sonunda tabor, divizion komandirləri və onların müavinlərinə döyüş atışlı tabor taktiki təliminin planlanması, hazırlanması, keçirilməsi, təlim zamanı bölmələrin və atəşin idarə edilməsi metodikası praktiki olaraq göstərilib. Təlimdə yaranmış əməliyyat şəraitinə əsasən, motoatıcı taborun düşmənlə bilavasitə təmas vəziyyətindən hücuma keçərək şərti düşməni məhv etməsi praktiki yerinə yetirilib. Piyadaların döyüş maşınlarının, top və minaatanların, tank əleyhinə qurğuların, müasir idarəetmə vasitələrinin də cəlb edildiyi təlimdə qarşıya qoyulmuş məqsədə nail olunub.





8 May Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günüdür

# Azərbaycan cəmiyyətində humanizm dəyərlərinə böyük önəm verilir



Müstəqil Azərbaycan dövlətinin ideya təməli xeyirxahlıq və mərhəmət kimi nəcib keyfiyyətlərə əsaslanan dəyərlərə söykənir. Ulu öndər Heydər Əliyevin dövlət quruculuğunun əsasında da məhz ədalət, insanpərvərlik kimi keyfiyyətlər dayanırdı. Bu ənənələri layiqincə davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində cəmiyyətdə humanizm prinsipləri tam bərqərar olmuş, mühüm prioritet kimi geniş miqyas almış, bütün sahələri əhatə etmişdir.

Ulu öndərin anadan olmasının 96-cı ildönümündə bu sahədə əldə edilən nailiyyətlər bir daha yada salınır, keçilən yolun mahiyyəti təhlil edilir. Bu məqamda fərəhlə qeyd etməliyik ki, Heydər Əliyevin əbədiyaşar xatirəsinin, həmişəyaşar ideyalarının işığında humanizm prinsiplərinin cəmiyyətimizə gətirdiyi faydalar daha aydın və əhəmiyyətli görünür. Bütün dünyanın həm də qlobal mərhəmət günü kimi qeyd etdiyi 8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günündə Azərbaycan qızıl ayparaçıları ümummilli liderin hərəkatımıza böyük töhfələrini, fəaliyyətimizə verdiyi mühüm təkanı qədirbilənliklə, minnətdarlıqla anır.

Mahiyyətində humanizm, xeyriyyəçilik, insanlara kömək etmək kimi prinsiplər dayanan Beynəlxalq Qızıl Xac və Qızıl Aypara Hərəkatının yaranması XIX əsrin 60-cı illərinə təsadüf edir. Hərəkatın banisi və qurucusu isveçrəli tacir, sülh üzrə ilk Nobel mükafatçısı Anri Dünandır. A.Dünanın anadan olduğu gün - may ayının 8-i onun şərəfinə bütün dünyada Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü kimi qeyd olunur.

Humanistlik, qərəzsizlik, xeyirxahlıq, neytrallıq, könüllülük, vahidlik və universallıq əsas fəaliyyət prinsipləri olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatına Şərqdə ilk demokratik müstəqil respublikamız olan Azərbaycan Xalq Cümhuriyyətinin dönəmindən böyük önəm verilib. 1920-ci ilin martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri əvəzi, general-leytenant Əliağa Şıxlinskinin və Fətəli Xan Xoyskinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilib. 1920-ci ilin aprel çevrilişindən sonra AzQAC-ın fəaliyyəti məhdudlaşdırılıb. 1922-ci ilədək Azərbaycanda formal olaraq Rusiya Qızıl Xaç Cəmiyyətinin nümayəndəliyi fəaliyyət göstərib. 1922-ci ilin oktyabr ayında Azərbaycan Xalq Komissarları Şurasının qərarı ilə AzQAC 1991-ci ilədək Ümumittifaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Birliyinin üzvü kimi humanitar fəaliyyətini davam etdirib.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul ediləndən bir neçə gün sonra AzQAC da müstəqil fəaliyyətini elan edib. Müstəqilliyimizin ilk illərində ölkədə mövcud olan çətinliklər, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış problemlərin aradan qaldırılmasında əsas rol oynayan qeyri-hökumət təşkilatlarından biri AzQAC idi.

AzQAC-ın bugünkü inkişaf mərhələsinə çatmasında dövlətin rolu xüsusi qeyd edilməlidir. Müstəqilliyin ilk illərində AzQAC öz missiyasını davam etdirsə də, hüquqi bazasının olmaması, beynəlxalq aləmdə tanınmaması, ölkədəki gərgin vəziyyət onun inkişafı üçün böyük problemlər yaradırdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra AzQAC inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü hələ 1994-cü ildə AzQAC milli qurum kimi dövlət tərəfindən tanındı. Bundan sonrakı dövrlərdə də ulu öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəmədi. Heydər Əliyevin 12 mart 2003-cü il tarixində AzQAC-ın XX qurultayına təbrik məktubu ulu öndərin cəmiyyətimizin fəaliyyətinə verdiyi əvəzsiz qiymətdir. Təbrikdə deyilir: *“Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir”.*

Hər bir sahədə ulu öndər Heydər Əliyevin siyasi xəttini layiqincə davam etdirən, zənginləşdirən Prezident İlham Əliyev AzQAC-ın fəaliyyətinə qayğı ilə yanaşır. Bu qayğı sayəsində təşkilatımız bu gün MDB ölkələrində ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş milli cəmiyyətlərdən birinə çevrilib. Cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda imzaladığı sərəncamlardan biri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı olub.

2007-ci ildə “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” qanunun qəbulu cəmiyyətin statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu. Bu qanunun qəbulu da məhz Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində reallaşdı. Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən isə hər il martın 10-u Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunur. Cəmiyyətin yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, üzvlərimizin orden və “Tərəqqi” medalı ilə təltifi fəaliyyətimizə verilən ali dəyər olmaqla bizləri humanizm və xeyriyyəçilik kimi müqqəddəs missiyamızı daha inamla həyata keçirməyimizə yüksək stimul verib.

May ayının 10-u ölkəmizdə başqa bir əlamətdar hadisənin - məramında xeyriyyəçilik və humanizm dəyərləri dayanan Heydər Əliyev Fondunun yaranmasının 15-ci ildönümü tamam olur. Öncə onu qeyd edim ki, Azərbaycanda xeyriyyəçilik və humanizm institutu son dövrlərdə xüsusilə intensiv şəkildə inkişaf etməyə başlamışdır. Bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fonduna yaranan gündən layiqincə rəhbərlik edən Mehriban Əliyevanın çox böyük səyləri və şəxsi təşəbbüskarlığı böyük rol oynayır. Heydər Əliyev Fondunun xətti və Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qaçqınların və məcburi köçkünlərin, talassemiya və diabet xəstəliklərindən əziyyət çəkən uşaqların dəstəklənməsinə yönəlmiş müxtəlif proqramlar, uşaq evlərinin yenidən qurulması və onlar üçün yeni binaların tikintisi layihələri məhz bu məqsədə xidmət edir.

Bu baxımdan Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi proqramlar ən gözəl humanizm nümunələridir. Milli Məclisdə qəbul olunan amnistiya qərarları da Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi humanizm missiyasının nümunələridir. Azərbaycanın Birinci vitse-prezidenti təyin olunduqdan sonra isə Mehriban Əliyevanın bu istiqamətdə yeni təşəbbüslərinin şahidiyik. Məcburi köçkünlər üçün yeni binaların tikintisi, müharibə əlillərinin protezlərlə təminatı, ayrı-ayrı vətəndaşların müalicəsinə göstərilən kömək Mehriban Əliyevanın humanizm missiyasının getdikcə daha böyük vüsət almasından xəbər verir.

Təbii ki, bütün bunlar 350 minədək üzvü, 25 minədək könüllüsü olan qeyri-hökumət təşkilatı kimi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə böyük stimul verir. Beynəlxalq hərəkatın tərkib hissəsi kimi cəmiyyətimiz Azərbaycanın dövlət siyasətində yer tutan humanizm dəyərlərinə və məramına uyğun olaraq bundan sonra özünün vəzifələrini layiqincə yerinə yetirəcək.

**Novruzəli ASLANOV,**
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı***

Faşizm üzərində qələbədən 74 il ötür

# 99 yaşlı qəhrəman

**◆ Ömür səhifələri**

**...Havaya yüksələn qatı toz-torpaqdan göz-gözü görmürdü. Hər dəfə bomba atılanda belə olurdu. Tozun yerə yatması üçünsə xeyli vaxt lazım idi. O da hardaydı?! Bombalar, mərmilər, avtomatdan açılan atəşlər səngimək bilmirdi. Səs-küydən az qalırdı qulaq kar olsun. Yaralıların iniltisi isə ərşə qalxırdı...**

**Toz-dumanın içindən ağır yaralanan əsgərlərdən birinin ölmədiyini, ağrıdan zarıdığını güclə sezdi. Yanındakı digər şəfqət bacısı ilə birlikdə özünü həmin əsgərin yanına yetirdi. O, əsgərin ayağındakı, rəfiqəsi isə başındakı yaraları sarıdı. Bu vaxt daha bir dəhşətli partlayış qopdu.**



Mərmi düz yanlarında partlamışdı... Özünə gəlib gözlərini açanda ayağında ağrı hiss elədi. Yaralanıbmış. Rəfiqəsinin həyatını isə xilas etmək mümkün olmadı. Elə gözlərinin önündə can verdi.

Bu itkini, ölümü, ağrını yaşamağa, həzm etməyə macal tapmamış dəhşətli uğultunun içərisindən inilti səsi eşitdi. Ağır yaralı əsgərlərdən biri köməyə çağırırdı. Özü də yaralı olmasına rəğmən, sürünüb ona çatdı. Yarasını sarımaq, ilk tibbi yardım etmək üçün əsgərin yanına, səngərə endi. Güllə gənc əsgərin başından dəymişdi. Çox qan itirmişdi. Elə bu an səngərin üstündən alman tankları keçməyə başladı. Kənardakı daşlar başına tökülsə də, səsini çıxarmadı. Qorxudan dili tutulmuşdu... Həmin gecəni yaralı əsgərlə birgə səngərdə dirigözlü açdı. Gün ağaranda isə sanitarlar döyüş bölgəsinə gəlib, onu və digər yaralıları hospitallara apardılar...

O vəhşət, müsibət dolu tarixin üzərindən 75 ildən çox zaman keçsə də, yaşadıqlarını ömrünün bu çağında belə unutmayıb İkinci Dünya mübarizəsinin azərbaycanlı şəfqət bacısı Fatma Səttarova...

Həyatının müharibə kəsimini xatırladıqca 4 il ərzində gördüyü dəhşətləri, ölümləri, ağrı-acını, zilləti, səfaləti yenidən iliyinə kimi yaşayır sanki. Amma keçdiyi şərəfli ömür yoluna baxıb qürur duyur həm də... Onun tale yolunu “Ömür səhifələri”ndə vərəqləyirik...

## Səhv düşəndə təvəllüd...

*Fatma Səttarova 1920-ci il yanvarın 25-də Bakıda əslən İrandan olan tacir Hüseyn kişinin ailəsində dünyaya gəlib. Evin yeganə övladı olub. Özündən əvvəl ailədə iki uşaq doğulsa da, qızılcadan tələf olublar. O, anadan olan il Azərbaycanda qarışıqlıq idi. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğramışdı. Hüseyn kişi də yenidən İrana qayıtmaq niyyətində idi. Elə ona görə də Fatmaya doğum şəhadətnaməsi almırdı. Amma həyat onun niyyət etdiyi yox, heç gözləmədiyi məcraya yön alır.*

- 1922-ci ildə SSRİ hökuməti əhalini siyahıya almağa başlayır. Keçmiş Poluxində atamın mülki vardı. Bir gün bizim qapını da döyüblər və məlum olub ki, 2 yaşa çatsam da, “metirkam” yoxdu. Səbəbini soruşublar. Atam cavab verib ki, biz İrana qayıdacağıq, sənədi ordan alacam. Deyiblər, olmaz, uşağa sənəd alınmalıdır. Nəticədə məni 2 il cavanlaşdırıb, “metirkama” 1922-ci il yazıblar. Anam danışırdı ki, onda məni də götürüb faytonla İran konsulluğuna gedib. Deyib, bu uşağı siyahıya aldılar. Ordan da narahatlıq üçün əsas olmadığını bildiriblər. Amma İrana qayıdacağı ümidilə yaşayan atam burda rəhmətə getdi. Anam da tək qayıtmadı İrana. Beləcə, Bakıda böyüyüb boya-başa çatdım.

## Döyüşə qızlar gedir...

*1937-ci ildə Bakıdakı Tibb Texnikumuna daxil olur. 1940-cı ildə texnikumu bitirəndə artıq nişanlı idi. Həyat yoldaşı Məhəmməd Səttarov Montin adına maşınqayırma zavodunun direktoru idi. Qonşuluqda yaşayırdı. Fatmanı da elə ordan tanıyırdı. Ailələr razılığa gələndən sonra qıza da “hə” deməkdən başqa bir əlac qalmır. 1941-ci ilin yanvarında toyları olur. 5 aydan sonra isə müharibə başlayır. Və Fatma şəxsi həyatını büküb ürəyinin dərinliyinə qoymalı olur.*

- Texnikumda hərbi kafedramız vardı. Oranı bitirəndə bizə diplomla bərabər kiçik leytenant rütbəsi və hərbi bilet verdilər. Hərbi biletin arxasında yazılmışdı ki, müharibə başlasa, ikinci gün Bakı Hərbi Komissarlığında olmalısınız. 1941-ci il iyunun 21-dən 22-ə keçən gecə almanlar hücum etdilər. Səhər obaşdan radio ilə məlumat verildi. İyunun 22-də pasport və hərbi biletlərimizi götürüb, Məhəmmədlə birlikdə İçərişəhərdə, Qoşa Qala qapısında yerləşən Bakı Hərbi Komissarlığına gəldik. Ərizə yazaraq könüllü olaraq cəbhəyə getmək istədiyimizi dedik. Müharibə başlayan günün səhərisi Məhəmmədin direktoru olduğu maşınqayırma zavodu profilini dəyişib, hərbi silah-sursat istehsalına keçdi. Ona görə də Məhəmməd Bakıda qalmalı oldu, mən isə şəfqət bacısı kimi cəbhəyə yollandım. Texnikumu eyni ildə 27 qız bitirmişdi. O qızların hamısı həmin gün komissarlıqda idi. Bizə 2 gün vaxt verdilər. İyunun 24-də əşyalarımızı götürüb döyüşə yollandıq.

## “Azərbaycanlı əsgəri meşədə dəfn edib, Fatihə oxudum”

*Beləliklə, 21 yaşlı gənc xanımın döyüş yolu başlayır. Rəngarəng, çeşidli donlarını əsgər formasına, hündürdaban ayaqqabılarını ağır əsgər çəkmələrinə dəyişib, görmədiyi, bilmədiyi, dəhşət dolu, ölüm saçan yeni həyata atılır.*

- 1941-ci ilin sentyabrında bizi əsgərlərlə birgə eşelonlarla cəbhəyə, Moskva ətrafındakı şiddətli döyüşlərin olduğu zonaya yola saldılar. Briqadada 2 tibb bacısı və 3 sanitar vardı. Başımıza bombalar yağırdı. Hara baxırdım qan görürdüm. Vəziyyət çox gərgin idi. Yaralılar o qədər çox olurdu ki, sınıq tramvaylarda tibb məntəqələri yaratmışdılar. Yaralıları orada qəbul edir, ilkin yardım göstərirdik. Almanların hər an Moskvanı alacağı gözlənilirdi. Lakin İvan Panfilovun ordusu almanları Moskva ətrafından çıxarmağa müvəffəq oldu.

Bir müddət sonra məni Leninqrada göndərdilər. Dörd ay yarım orda blokadada qaldım. Alman təyyarələri hər tərəfi bombalayırdı. Ayağımda ağır çəkmələr, çiynimdə özümdən ağır çanta bir səngərdən digərinə qaçırdım. Bir də baxırdın ki, yaralılar torpağın üstünə qarışqa kimi səpələnib. Qolu, qıçı qopan kim, ölən kim?! Hər tərəf al-qana boyanırdı. Şəhərə cəmi iki yol vardı: Ladoqa gölü vasitəsilə və havadan. Yaralıları qayıqlarla şəhərdən çıxarırdıq. Bəzən göllə bomba atırdılar, qayıqlar partlayırdı. Dəhşətli mənzərə idi. Ölənləri də meşələrdə, ağacların altında basdırır və havaya atəş açırdılar. Heç vaxt yadımdan çıxmaz, bir azərbaycanlı əsgər başından yaralanmışdı. Can verə-verə qollarımın üstündə öldü. Onu da meşədə dəfn elədik, lakin hansı meşə idi xatırlamıram. Ona Fatihə oxudum, bunu anam öyrətmişdi mənə. Adı Məhərrəm idi. Sənədini vermədilər mənə. Komandir götürdü ki, ölənlərin sənədlərini siyahı ilə evlərinə göndərəcəyik.

## “Aclıqdan bir dəri-bir sümük qalmışdım”

*Amma müharibədə əsgərlər təkcə bombardmandan deyil, həm də aclıqdan ölürdülər. Dəhşətli aclıq, səfalət hökm sürürdü. Günlərlə ac qalır, yeməyə bir tikə çörək də tapmırdılar.*

- Bir də baxırdın ki, yeridiyi yerdə kimsə aclıqdan yıxılıb öldü. Bizə gündəlik 50 qram qara çörək və jımıx verirdilər. Elə olurdu günlərlə çörək üzünə həsrət qalırdıq. Aclıqdan bir dəri-bir sümük olmuşdum. Tək mən yox, hamı elə idi. İnsanların gözləri bərələ qalmışdı. Aclıq hər şeyə üstün gəlmişdi. Hətta vəziyyət elə bir həddə çatmışdı ki, camaat it, pişik, siçan kəsib, ətini yeyirdi. Artıq ölülərə də daraşırdılar. Müsibət idi... Dəmləməyə çay olmurdu. Qurumuş palıd yarpaqlarını suya atırdıq ki, bir az rəngi çıxsın. Azca saxarin var idi, qənaətlə içirdik. Yuxuya da həsrət idik. Arada 1-2 saat sakitlik olanda ağacın altında oturaqlı gözümüzü yumurduq ki, bir az gözümüzün acısını alaq. Müharibə dəhşətlidi. Qadın üçünsə ikiqat çətindi. Həftələrlə saçımızı yumurduq. Amerika dəmir qabların içində yumurta tozu göndərirdi. Həmin qabların içində su isidib, saçımızı elə bayırdaca yuyurduq. Yayda isə hardasa gölməçə olsa, ora girib, sabunsuz yuyunurduq. Heç dəsmal da yox idi qurulanmağa...

## Qələbə və yeni həyat...

*1943-cü ildə sovet ordusu Leninqrad ətrafında blokadanı yarır. Fatma Səttarova bir müddət Stalinqrad döyüşündə tibb bacısı kimi iştirak edir. Bu döyüşdə də almanlara qalib gəlirlər. Ardınca Baltikyanı ölkələrdə, Ruminiya və Macarıstanda gərgin döyüşlərə gedir. Fatma xanım Macarıstanda döyüş zamanı ayağından və qolundan qəlpə yarası alır. Ayağındakı qəlpəni çıxarsalar da, qolundakını indiyə kimi xatirə “saxlayır”. Yaralı olduğuna və çox zəiflədiyinə görə 1945-ci ilin fevralında Fatma Səttarovanı Bakıya göndərirlər. 3 ay sonra, mayın 9-da isə sovet ordusu faşizm üzərində qələbə çalır.*

- Mənimlə eyni vaxtda texnikumu bitirib, müharibəyə gedən 27 qızdan 15-i həlak olmuşdu. Hər dəfə cəbhədən qara xəbər gələndə yazıq anam nələr çəkirdi... Hər namazında dua edirdi ki, sağ qayıdım. O vaxt telefon əlaqəsi yox idi. 2-3 aydan bir məktub gələrdi, ya gəlməzdi. Yaralıları qatarla, eşelonlarla yola salanda evə məktub da göndərirdim. Həyat yoldaşımla 4 ildən də çox ayrı qaldıq. Müharibədən qayıdandan sonrakı görüşümüzü dillə təsvir etmək mümkün deyil... Anam isə məni görəndə dəhşətə gəldi, tanımadı. Çox arıqlamışdım. Çəkim 40 kiloqram idi. Arıq, yorğun, zəif və xəstəhal görünürdüm. Toparlanıb özümə gəlməyim aylar çəkdi. Cəbhədə 42 ölçüdə çəkmə geyinirdim, işgəncə çəkirdim elə bil. Amma cəbhədən qayıdandan sonra həyat yoldaşımın hədiyyə etdiyi məxməri paltarımı, sevimli hündürdaban ayaqqabılarımı geyindim və qol-qola şəhəri gəzməyə çıxdıq.

Beləcə, yeni həyata başladım. Dekabr ayında ilk övladım - oğlum Ramiz dünyaya gəldi. Sonra Rakiz, Pərviz. 4-cü övladım Dilarə doğulanda artıq 28 yaşım vardı. Həyat yoldaşım son dərəcə qayğıkeş, səmimi insan idi. Onunla 25 il xoşbəxt həyat sürdüm. O mənə, mən də ona dayaq oldum. Onun ölümündən sonra övladlarımı boya-başa çatdırmaq üçün çox çətinlik çəkdim. 4 uşağı tək böyütmək, təhsil vermək asan deyil. Həyatın daşlı-kəsəkli yollarını keçdim. Amma övladlarımın hamısına ali təhsil verdim. Böyük oğlumun 74 yaşı var, hələ də mənimlə məsləhətləşir.

## “Heydər Əliyevlə universitet illərindən tanış idik”

*Fatma xanım deyir ki, qələbədən bir qədər sonra Stalin müharibə iştirakçıları ilə görüşür, söhbət edir. İlk parada qatılırlar. 28 yaşı olanda isə birinci katib Mircəfər Bağırovun qəbulunda olur. Bağırovun göstərişi ilə müharibə iştirakçıları istədikləri ali məktəblərə imtahansız qəbul edilirlər. F.Səttarova indiki Bakı Dövlət Universitetinin iqtisadiyyat fakültəsinin axşam növbəsində, o cümlədən Moskvada Plexanov adına universitetin ticarətin idarə edilməsi fakültəsində qiyabi təhsil alır.*

- Müharibədən qayıdan tibb işçilərinin bəziləri Tibb İnstitutunu seçdilər. Amma mən istəmədim. Nə qədər ayaq, qol kəsib torpaqda basdırmaq olardı?! O qədər qan görmüşdüm ki, hətta bint də ürəyimi bulandırırdı. O dəhşətlərdən sonra bir də yaraya, qana baxa bilməzdim. Ona görə də iqtisadiyyatı seçdim. Bizə güzəşt edirdilər. Bağırov ara-sıra bizimlə görüşürdü, maraqlanırdı ki, sizi incitmirlər, narazılığınız varmı? Həm işləyir, həm də oxuyurduq.

Mən ulu öndər Heydər Əliyevlə bir dövrdə ali təhsil almışam. O, tarix fakültəsində qiyabi oxuyurdu. Onda dövlət təhlükəsizlik orqanlarında çalışırdı, zabit formasında gəlirdi. Hündür, çox yaraşıqlı gənc idi. Qiyabiçilər ildə iki dəfə sessiyaya gəlirdilər. Mən də elə o vaxtdan onu tanıyırdım. İldə 2 dəfə imtahan vaxtlarında görüşürdük.

Sonra onu 1969-cu ildə respublikaya yenicə birinci katib seçilən vaxt indiki Şəhriyar adına klubda gördüm. Onda Nərimanov rayon İaşə İdarəsinin rəhbəri idim. Klubda iki saat, özü də ayaqüstə və azərbaycanca çıxış etdi. Hamımız heyran qalmışdıq. Çünki ilk dəfə idi ki, belə bir halla rastlaşırdıq.

Mən çox vaxt müharibəyə getdiyimi demirdim, gizlədirdim. Düzdür, anam, yoldaşım, özüm bununla fəxr edirdim. Amma elə adamlar vardı ki, qadının müharibədə olmasına pis baxırdılar. Heydər Əliyev Azərbaycana ikinci dəfə rəhbər gələndən sonra veteranlara qiymət verilməyə başladı. Hər il mayın 9-da bizimlə - müharibə iştirakçıları ilə görüşürdü. Hər dəfə görüşəndə universitet xatirələrimizdən danışardıq. Mənə hörmətlə yanaşırdı. Bir dəfə müharibə xatirələrimi bölüşərkən gördüyüm dəhşətli mənzərələri, aclıq, səfalət barədə Heydər Əliyevə danışdım. Gözləri doldu. Dedi “sənin o müharibədən sağ qayıtmağın möcüzədir. Sən Azərbaycanın qəhrəman qızısan”.

## “İlham Əliyev və Mehriban xanım mənə daim qayğı göstərir”

- Bu gün də dövlətimizin mənə göstərdiyi qayğıdan çox razıyam. Hər il Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva veteranlarla görüşür. İlham müəllim gözümün qabağında böyüyüb. Onun təhsil aldığı 6 nömrəli məktəbdə müharibə veteranları ilə görüşlər təşkil olunurdu, mən də bu görüşlərə mütəmadi gedirdim. Orda İlhamı göstərib deyirdilər bu, Heydər Əliyevin oğludu.

Sizə bir maraqlı fakt da deyim. Mir Cəlal Paşayev oxuduğum 10 nömrəli məktəbdə mənə ədəbiyyatdan dərs deyib. Bir gün zəhmət dərsini tədris edən müəllimimiz sinfə girib dedi ki, “uşaqlar, Mir Cəlal müəllimin oğlu dünyaya gəlib. Müəlliminiz gələndə onu təbrik edərsiz”. Mir Cəlal müəllim dərsə gələndə ayağa qalxıb, salamladıq. Dedik, gözünüz aydın, müəllim, Arif oğlunuz xoş gəlib. O da güldü, başını saldı aşağı. Bunu Arif Paşayevə də danışmışam (gülür).

Çox sağ olsun, prezidentim və xanımı. Mənə hər zaman hörmət edib, qayğıyla yanaşıblar. 2011-ci ildə veteranlar binasından mənə ev veriblər, iki dəfə avtomobil hədiyyə ediblər. İllərdir Prezident təqaüdü alıram. Daim də səhhətimlə maraqlanırlar. Müxtəlif tədbirlərdə, görüşlərdə iştirak edirəm, gənclərlə söhbətləşirəm, müharibədən danışıram, xatirələrimi bölüşürəm. Hər dəfə də gənclərimizə tövsiyə edirəm ki, Vətəni ürəkdən sevsinlər, onun uğrunda döyüşə, torpaqlarımızı azad etməyə hər an hazır olsunlar...

*Bu, İkinci Dünya müharibəsinin iştirakçısı, Azərbaycanın bir əsrlik tarixinin canlı şahidi Fatma Səttarovanın şərəfli həyat yoluna qısa nəzər idi. Onun ömür payına müharibə, ölüm, qan-qada ilə rastlaşmaq, aclıq düşüb. Amma sevgi də görüb, xoşbəxtlik də, firavan günlər də yaşayıb. Çəkdiyi bütün ağrılara, çətinliklərə, itkilərə baxmayaraq bəxtindən şikayət etməyib. Ana, nənə zirvəsinə yüksəlib. “Taleyimdən çox razıyam”, - deyir. 11 nəvəsi, 22 nəticəsi var. Bundan sonrasına isə həyatdan iki istəyi var - kötükcəsini görmək və gələn il 100 illik yubileyini qeyd etmək. Hər iki arzusunun çin olması diləyi ilə...*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Krımdan Berlinədək...

*Qurban kişinin 102 yaşı var. İkinci Dünya müharibəsi başlayanda özü demişkən, bığ yeri təzəcə tərləyirdi. O qədər arzuları, istəkləri vardı ki... Müharibə hamısını yarımçıq qoydu.*
*Döyüş yolu Krımdan başladı. Sonra görmədiyi, adını kitablardan oxuduğu şəhərlərdə olub, ən çətin döyüşlərdə iştirak etdi.*
*Müharibə veteranı dedi ki, atası Seyid kişi onu müharibəyə yola salanda bir qədər kövrəlsə də, xeyir-duasını unutmadı: “Get, özündən muğayat ol, amma düşmənə macal vermə ki, bu tərəflərə göz diksin. Mütləq bizi xatırlayarsan - ananı, bacılarını, qohum-əqrəbalarını, bu kəndi-kəsəyi...”*



Qurban Ziyadov Qəbələ rayonunun dağ kəndində - Qəmərvanda doğulub. Kənd-kəsək işlərində atasına yardımçı olub, ən ağır işlərin qulpundan yapışıb. İndi 19 nəvənin, 4 nəticənin, 3 kötükcənin babası, 4 övlad atasıdır. Elin-obanın sayılıb-seçilən ağsaqqallarındandır. Yaşı çox olsa da, öyüd-nəsihəti tükənməyib. Onun xeyir-duası ilə o qədər ailə ərsəyə gəlib ki... Deyir bəzən 2-3 gün dağlarda, meşələrdə ac qalırdıq. Amma geriyə dönmək, torpağı düşmənə təslim etmək barədə düşünmürdük. Stalinqradda ağır döyüşlər gedəndə mənə Marşal Jukovla görüşmək qismət oldu. Bizə dəyərli məsləhətlər verdi. Vaxtın-vədənin qədrini bilək deyə komandirimizə öz qol saatını hədiyyə etdi. Müharibədə çox şeylərin şahidi olduq - itkilərin, əzabların, ağır döyüşlərin. Gərək dözüm göstərməyi bacarasan. Nəvələrimə o ağır günlərdən saysız-hesabsız xatirələr danışmışam.

Qurban kişi övladlarından söhbət açanda da qürur hissi keçirir, fərəhlənir. Deyir ki, bu gün məni yaşadan, gümrah saxlayan övladlarımın xoş xəbəri, layiqli əməlləridir. Çoxunun ali təhsili var, hərəsi bir sahədə çalışır.

Qurban dayı yaşının bu çağında da qıvraq görünür. Həyətyanı sahəsində gücü çatan işin qulpundan yapışır. Deyir ki, bu ağacların çoxunu müharibədən qayıdandan sonra əkmişəm. Hər il barından övladlarım sovqat aparırlar.

Müharibə veteranı dolanışığından, güzəranından da razılıq etdi. Dedi ki, dövlət bizi unutmur. Heç nəyin sıxıntısını keçirmirik. Müharibə veteranlarına qayğı-kömək ildən-ilə artır. Bizim sosial şəraitimizi yaxşılaşdırmaq üçün dövlət heç nəyi əsirgəmir. İndi Azərbaycanın ən ucqar kəndlərində də qaz, su, yol problemi həll olunur. Prezident dəfələrlə Qəbələ rayonunda da sadə adamlarla, müharibə veteranları ilə görüşüb. Bizim ən zəruri ehtiyaclarımızı, problemlərimizi yerindəcə öyrənib, həlli üçün tapşırıqlar verib. Dövlət başçısının tapşırığı ilə müxtəlif nazirliklərin rəhbərləri də görüşlərə gəlir. Son illər belə görüşlər Qəbələdə də keçirilir. Bütün bunların səmərəsi hər birimizdə fərəh, qürur hissi yaradır.

Qurban kişi Prezidentin son aylarda imzaladığı sərəncamlarından da söz açaraq dedi ki, hər şey xalqın xeyrinə hesablanıb. Təqaüdlər, sosial yardımlar dəfələrlə artırılıb. Onun da ən böyük arzusu torpaqlarımızın işğaldan xilas olmasını görməkdir. 9 may Qələbə Günü münasibətilə yaşıdlarını təbrik edib, xalqımıza firavanlıq, dövlətimizə güc, qüdrət arzuladı...

***Bəşir ŞƏRİFLİ,***
***“Azərbaycan”***

# Ağsu, İsmayıllı və Şamaxı rayonlarındakı zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı hesabat brifinqi keçirilib

## Dağıntıya məruz qalan evlərin 80-90 faizi fiziki köhnəlməyə məruz qalmış, çiy kərpicdən tikilən evlərdir

Bu il fevralın 5-də Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülmüş işlərə dair üç aylıq hesabat brifinqi keçirilib.

AZƏRTAC xəbər verir ki, İsmayıllıda təşkil olunan brifinqdə hər üç rayonun icra hakimiyyətlərinin başçıları təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlər barədə məlumat veriblər. Brifinqdə Fövqəladə Hallar Nazirliyinin və "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri də iştirak ediblər.

Bildirilib ki, episentri İsmayıllı və Ağsu rayonlarının ərazisində olan zəlzələ nəticəsində Ağsu, İsmayıllı və Şamaxı rayonlarında 748 ev qəzalı vəziyyətə düşüb, yüzlərlə evə, eləcə də sosial və infrastruktur obyektlərinə müxtəlif dərəcədə ziyan dəyib. Xoşbəxtlikdən insan itkisi qeydə alınmayıb.

Hadisənin səhəri günü dövlət başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşüb, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirib. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini verib.

Təbii fəlakətdən dərhal sonra Fövqəladə Hallar Nazirliyinin müvafiq komissiyası yerlərdə vətəndaşlar tərəfindən evlərinin qəzalı vəziyyətə düşməsi ilə bağlı edilən müraciətlərin araşdırılmasına başlayıb.

Qeyd olunub ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı əsasında "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri və könüllüləri Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələdən zərər çəkmiş evlərin sakinləri ilə görüşərək, onların problemlərinin həlli istiqamətində dövlət qurumları ilə birlikdə sıx işləyib, insanlara mənəvi dəstək göstəriblər.

Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadları dövlət başçısının müvafiq sərəncam və tapşırıqlarına əsasən aradan qaldırılmaqdadır.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bildirib ki, zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı yaradılmış komissiyaya 66 yaşayış məntəqəsindən 1272 müraciət daxil olub və həmin evlərə baxış keçirilib. Onlardan 344 ev qənaətbəxş hesab olunub, 455 evdə təmirə, 344 evdə bərpaya ehtiyac duyulduğu barədə qərar verilib. 114 evin isə qəzalı olduğu müəyyənləşib. Hazırda qəzalı evlərdən 76-nın tikintisi aparılır. Bundan başqa, yerlərdə sosial obyektlərə də baxış keçirilib, 1 məktəb binasının, 1 uşaq bağçasının və 2 inzibati binanın da qəzalı olması müəyyənləşib.

Hazırda "Regional İnkişaf" İctimai Birliyi tərəfindən qəzalı vəziyyətdə olan Keyvəndi və Diyallı kənd tibb məntəqələrinin tikintisinə başlanılıb. Eyni zamanda, 320 şagird yerlik Gəraybəyli tam orta məktəbinin, 40 şagird yerlik Kələzeyvə ibtidai məktəbinin, 40 yerlik Quşencə uşaq bağçasının tikintisi nəzərdə tutulub.

Təbii fəlakətlə bağlı rayon üzrə vətəndaşlardan ümumilikdə 2460 evlə bağlı müraciətin ünvanlandığını deyən Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev isə qeyd edib ki, müraciətlərin araşdırılması nəticəsində 350 ev qəzalı sayılıb, 435 evin bərpaya, 1601 evin təmirə ehtiyacı olduğu müəyyənləşib. 74 evin vəziyyəti qənaətbəxş olub. Hazırda rayonda 162 evdə tikinti işləri aparılır.

Zəlzələ nəticəsində rayonda ziyan dəymiş 10 sosial obyektə baxış keçirilib, onlardan 8-nin qəzalı, 2-nin isə bərpaya ehtiyacı olduğu müəyyən edilib. Bico və Ərəbuşağı kənd tibb məntəqələrinin, Arakənd kənd orta məktəbinin və Pirhəsənli kənd körpələr evi-uşaq bağçasının yenidən tikilməsi nəzərdə tutulur.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov da üç ayda görülən işlər barədə məlumat verərək bildirib ki, təbii fəlakətdən keçən dövrdə vətəndaşların müraciəti əsasında 5584 evə baxış keçirilib. Bu evlərdən 284-ü qəzalı hesab edilib və artıq onlardan 3-nün inşası başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Fövqəladə Hallar Nazirliyinin müvafiq komissiyası tərəfindən 1274 evin bərpaya, 2212 evin təmirə ehtiyacı olduğu bildirilib, 1814 evin vəziyyəti qənaətbəxş qiymətləndirilib. Hazırda 112 evdə tikinti işləri aparılır.

Zəlzələnin fəsadlarının aradan qaldırılması ilə yanaşı, Şamaxıda təhsil, səhiyyə və mədəniyyət sahəsində infrastrukturun yenilənməsi istiqamətində də mühüm işlər görülür. Həmçinin "Regional İnkişaf" İctimai Birliyi tərəfindən rayonda bir sıra sosial obyektin tikintisi nəzərdə tutulub.

Hər üç rayonun icra hakimiyyətlərinin başçıları dağıntıya məruz qalan evlərin 80-90 faizinin fiziki köhnəlməyə məruz qalmış, çiy kərpicdən tikilən evlər olduğunu bildiriblər. Qeyd olunub ki, hazırda tikintisi aparılan evlər bütün texniki parametrlərə cavab verir. Qəzalı kimi qeydə alınan bütün evlərin inşası, bərpası həyata keçiriləcək. Bu işlərin ilin sonunadək həyata keçirilməsi nəzərdə tutulur. Bildirilib ki, bəzi hallarda məhz zəlzələ zamanı qəzalı hala düşən evlərlə bağlı olmayan müraciətlər də komissiyalara daxil olur. Həmin müraciətlərin araşdırılması isə bilavasitə zəlzələdən zərər çəkənlərin müraciətlərinə baxılmasının ləngiməsinə səbəb olur.

Brifinqdə həmçinin bölgədə olan tarixi-mədəniyyət abidələrinin təbii fəlakətdən zərər görmədiyi diqqətə çatdırılıb.


Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

**açıq tender elan edir**

**Tender 2 LOT üzrə keçirilir:**
- **LOT 1 - İdarənin digər xərcləri**
- **LOT 2 - Müxtəlif çeşidli yuyucu maddələr**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (Telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı:
**LOT 1 - 250 manat**
**LOT 2 - 50 manat**
**Satınalan təşkilat: Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN:1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu **- 142340**
Büdcə səviyyəsinin kodu **- 7**
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- Tenderdə iştirak etmək üçün yazılı müraciət;
- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- Tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- Digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **28 iyun 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr, Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **01 iyul 2019-cu il saat 15:00-da Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC içməli bulaq suyunun satın alınması məqsədilə 12 aprel 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu üzrə iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən kotirovka sorğusunun davamından imtina edir.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart, 03 aprel və 23 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən LOT-2 ehtiyat hissələrinin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 27 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 28 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az Tel.: (+99412) 431-47-67(2249).

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart, 03 aprel və 23 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə LOT-1 Avtoşinlərin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 14 may 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 15 may 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - İəchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az Tel.: (+99412) 431-47-67(2249).

***Tender komissiyası***


## Şuşanın işğalından 27 il keçir

# Qalalar və muzeylər məskəni




14 yanvar 1982-ci il tarixini, şübhəsiz ki, şuşalılar heç vaxt unutmayacaq. Molla Pənah Vaqifin xatirəsinə ucaldılmış məqbərənin açılışı idi o gün. Təbiət də özünəməxsus gəlmişdi o görüşə.

"Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

***Heydər ƏLİYEV***

Könül şüşəsi çiliklənən Şuşa "qar çiçəyi"nə, lopa-lopa yağan qara bələnmişdi. Həmin anlarda şuşalılar öz əziz qonaqlarını, xüsusən xalqımızın böyük oğlu Heydər Əliyevin Şuşaya gəlişini səbirsizliklə gözləyirdilər. Onlar küçələrdə, yol kənarlarında, eyvanlarda dayanaraq Heydər Əliyevə sonsuz ehtiramlarını bildirirdilər...

Səbəbsiz deyildi. Heydər Əliyev Qarabağa, onun zirvə tacı sayılan Şuşaya gəlmişdi. Əvvəlcə Cıdır düzündə Vaqifin ucaldılan məqbərəsinin qarşısındakı lenti kəsdi. Alqış sədaları altında dahi Üzeyir bəyin "Koroğlu" uvertürası əsrarəngiz Qarabağ dünyasına yayıldı. Heydər Əliyev öz dərin, parlaq çıxışının sonunda "Şuşa Azərbaycanın tarix və memarlıq abidəsidir" deyərək iştirakçılara tövsiyə etdi ki, bu ənənəni hər il davam etdirmək lazımdır.

### Ötən əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələri

Ümumimilli lider Heydər Əliyev Azərbaycana sovet dövründə rəhbərliyi zamanı (1969-1982-ci illər) Qarabağa çox böyük diqqət və qayğı göstərirdi: Azərbaycan torpaqlarının bir qarışı da Ermənistana verilmədi. Erməni iddialarının qarşısını hər zaman qətiyyətlə aldı. Ulu öndər hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta ötən əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarırdı. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev o zaman erməni millətçilərinin qarşısını qətiyyətlə alaraq Moskvadakı bəzi qüvvələrin qərarlarının həyata keçirilməsinə imkan vermədi. Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən ümummilli lider Heydər Əliyev onun inkişafına çox böyük qayğı göstərmişdi. Şuşanın kurort şəhərinə çevrilməsi üçün qərarlar qəbul etmiş, genişmiqyaslı quruculuq işlərinə təkan vermişdi.

Ulu öndərin 29 iyul 1982-ci il tarixdə yenidən Şuşaya gəlməsi, elm, ədəbiyyat xadimlərini, ailəsini özü ilə gətirməsi Qarabağa olan xüsusi diqqətini bir daha göstərirdi. İyulun 29-dan avqust ayının 3-dək bir sıra tədbirlərdə olan ulu öndər avqustun 2-də Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etdi. Onun poeziya bayramında saatlarla görkəmli Azərbaycan və Qarabağ şairlərinin şeirlərinə qulaq asması tədbirdə iştirak edən hər bir şuşalının yaddaşına əziz xatirə kimi yazıldı.

...Zaman necə də quşqanadlı olurmuş. Şuşanın o bəxtəvər günləri bir göz qırpımında ötüb keçdi. 1992-ci il mayın 8-də Azərbaycanın tarixi mədəniyyət məkanı olan Şuşa Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu, ölkəmizin və xalqımızın mədəni irsinə hesablanan ağır zərbə idi. Bu işğal zamanı Şuşa şəhəri və rayonun 30 kəndi dağıdıldı, 195 nəfər dinc sakin həlak oldu, 165 nəfər yaralandı, 58 nəfər itkin düşdü, 24 mindən çox əhali öz doğma torpağından didərgin salındı.



### İşğal nəticəsində 1700 tarix və memarlıq abidəsi "erməniləşdirilib"

Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan tarixində mühüm yer tutan, canlı təbiət muzeyi və abidələr şəhəri olan Şuşanın 25 məktəbi, 31 kitabxanası, 20 səhiyyə müəssisəsi, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya və turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilib, yandırılıb və dağıdılıb.

Şuşaya qıyılmazdı, ona əl qaldırılmazdı. Amma beynəlxalq təşkilatların son vaxtlar Şuşadan gətirdiyi soraqlarla orada güllələnmiş heykəllərin fəryadı sinə dağlayır, yara bağlayır. Şuşa, doğrudan da, qalalar, tarixin yaddaşından qalanlar diyarıdır. İşğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə də erməni vandalları tərəfindən dağıdılıb, məbədgah və məscidlər təhqirlərə məruz qalıb, çox sayda nadir əlyazma nümunələri məhv edilib. Bunların içərisində Son tunc və İlk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilib və dağıdılıb.

### Pənahəli xanın sarayında toxunan "Xanlıq" xalçasının acı taleyi

Dünyada ilk dəfə xalça muzeyi məhz Şuşada yaradılıb. Mehmandarovların evində yerləşən həmin muzey əsl incəsənət xəzinəsi idi. Həm memarlıq cəhətdən, həm də dekorativ gözəlliyi ilə seçilən binanın dörd böyük salonunda şöhrəti dünyaya yayılan Qarabağ xalçaları nümayiş etdirilirdi.

Qarabağın ilk hökmdarı Pənahəli xanın sarayında toxunan "Xanlıq" xalçası muzeyin orijinal eksponatlarından sayılırdı. Hər bir xalçanın öz adı və tarixi vardı. Muzeydə Təbriz, Quba-Şirvan, Gəncə-Qazax xalçaçılıq məktəbi nümunələrinə də geniş yer ayrılmışdı. Burada 350-dən artıq xalça məmulatı nümayiş etdirilirdi ki, onların yalnız 145-ni xilas etmək mümkün olub.

On salondan ibarət olan Şuşa Dövlət Rəsm Qalereyasında təsviri sənət ustalarının 200-ə yaxın əsəri nümayiş etdirilirdi. Zöhrabbəyovların evində yerləşən qalereyanın qızıl fondunu XIX əsr Azərbaycan miniatür sənətinin görkəmli nümayəndələrindən biri, məşhur rəssam və xəttat Mir Möhsün Nəvvabın öz kitablarına çəkdiyi illüstrasiyalar təşkil edirdi.

Bədii aləmin təcəssümü olan sənət inciləri, milli geyimlər, qədim musiqi alətləri Şuşa muzeylərinin bəzəyi idi. Nəhəng abidələr, memarlıq nümunələri açıq səma altında nümayiş etdirilirdi. Bədii yaradıcılığın zərif yadigarları isə bu gözəllik səltənətinin divarlarını daxildən bəzəyirdi.

### Güllələnmiş heykəllərin sağalmayan yaraları...

Belə bir qeyri-adi füsunkarlığa, müqayisəsi tapılmayan gözəlliyə malik idi Şuşa. Təəssüf ki, erməni vandalları üfüqlərdən boylanan dağ şəhərinin gözəllik sərgisini yerlə yeksan etdilər. Şuşada yaradılan ev-muzeyləri də talan edildi, yandırıldı. Ev sahiblərinin - tanınmış sənət və mədəniyyət xadimlərinin öz həyətlərində ucaldılan heykəlləri, büstləri güllələndi. Qartal vüqarlı Şuşanın sinəsinə çalın-çarpaz dağ çəkildi. Xan qızı Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Bakıdakı İncəsənət Muzeyinin həyətindəki yaralı heykəlləri Şuşaya dönəcəyi günü gözləyir...

Azərbaycanın aranlı-dağlı ellərində belə daşlaşmış tarixin yaşıdı abidələrimiz kifayət qədər idi. Bu yerlərin ilk insan məskənləri və mədəniyyət beşiyi olması da məhz həmin abidələrin oxunmasından, sirlərinin açılmasından sonra bəşəriyyətə məlum olmuşdur. Təəssüfləndirici haldır ki, həmin tarixi yadigarlar zamanların səmum küləyi, təbii aşınmalarla yanaşı, bu yerlərdə aparılan amansız müharibələr, döyüşlər nəticəsində bir çoxları yer üzündən silinib. Qalanları isə...

Şuşa təkcə qalalar şəhəri deyil, həm də muzeylər məskəni idi. Şəhərdəki tarix, xalça, daş sənətkarlığı, Qarabağ tarixi, dərman bitkiləri muzeyi, eləcə də yuxarıda adlarını sadaladığımız dahilərin ev-muzeyləri və oradakı eksponatlar sözün əsl mənasında təkcə tariximizin deyil, həm də mill mədəniyyətimizin aynası və saxlanc yeri idi.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ermənistan ordusu sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Təkrar*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə

# *açıq tender elan edir*

**LOT 1:** Dəftərxana ləvazimatlarının satın alınması;
**LOT 2:** Təsərrüfat mallarının satın alınması;
**LOT 3:** Ümumi havalandırma qurğuları (AHU və Fan coil) üçün sərfiyyat mallarının satın alınması;
**LOT 4:** Mətbəə işlərinin satın alınması;
**LOT 5:** RSA və Cisco sistemlərinin lisenziyalarının 1 il müddətinə uzadılması;
**LOT 6:** İnzibati binada quraşdırılmış yanğınsöndürmə sistemləri və avadanlıqlarına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 7:** Yanğınsöndürmə qurğularına (FM 200) texniki xidmətin satın alınması;
**LOT 8:** Yanğından mühafizə sistemlərinə və qurğularına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 9:** Kəsintisiz güc mənbələrinə (UPS) texniki xidmətin satın alınması;
**LOT 10:** Ümumi soyutma qurğularına (Chiller) texniki xidmətin satın alınması;
**LOT 11:** Generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 12:** Fasad təmizləmə qurğularına texniki xidmətin satın alınması;
**LOT 13:** Serverlər üçün soyutma qurğularına (Cracks) texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 14:** Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 15:** Su nasoslarına texniki xidmətin satın alınması;
**LOT 16:** Qazanlara (Boiler) texniki xidmətin satın alınması;
**LOT 17:** Mühəndis-texniki avadanlıqlara texniki xidmətin satın alınması.

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla http://www.oilfund.az ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **14 iyun 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-nin yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:
- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- tender təklifi (tender təklifi qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə).

Podratçılardan tələb olunan sənədlər (tender təklifi və təklifin təminatı istisna olmaqla) **31 may 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri (təklifin təminatı ilə birlikdə) isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **13 iyun 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında yerləşən ARDNF-yə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İştirak haqqı LOT 1, LOT 2, LOT 3, LOT 4, LOT 6, LOT 7, LOT 9, LOT 10, LOT 11, LOT 12, LOT 13, LOT 14, LOT 15, LOT 16 və LOT 17 üzrə 50 (əlli) manat, LOT 5 və LOT 8 üzrə isə 100 (bir yüz) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular TSK2019@oilfund.az ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+99412) 498-77-53, əlaqələndirici şəxslər: LOT 4 üzrə Aynur Səmədova (dax.: 6006), LOT 5 üzrə Nailə Məmmədli (dax.: 9005), LOT 1, LOT 2, LOT 3, LOT 6, LOT 7, LOT 8, LOT 9, LOT 10, LOT 11, LOT 12, LOT 13, LOT 14, LOT 15, LOT 16 və LOT 17 üzrə Elşad Bağırov (dax.: 1010), hüquqi məsələlər üzrə Kəmalə Rəhimova (dax.: 8023).

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC Sumqayıt şəhəri, S.Vurğun küçəsi, 1183 ünvanında yerləşən 94.13 hektar ərazisində inşa olunacaq avtomobil dayanacağının layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması üçün təkliflər sorğusu keçirir

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

**İştirak haqqı: 260 manat**

**H/h: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWİFT: PAHAAZ22**
**M/h: AZ82NABZ01350100000000071944**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *qiymət təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30** bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **17 may 2019-cu il saat 13:00-dək** "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 may 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2019-cu il üçün

# *kotirovka sorğusu elan edir*

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:
- İçməli suyun satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 13 may 2019-cu il saat 17:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:
- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- 01.01.2019 - 01.04.2019-cu il tarixinə olan bank dövriyyəsi;
- içməli su üçün müvafiq sertifikatlar.

**Ünvan: AZ1005, Bakı şəhəri Səbail rayonu H.Z.Tağıyev küçəsi, ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi bir ədəd pikap tipli minik avtomobilinin satın alınması məqsədilə

# *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsinin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412-598-21-37) ünvanından ala bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat.**

**VÖEN: 9900038911**
**H/h: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 iyun 2019-cu il saat 17:00-a** kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 iyun 2019-cu il saat 17:00-a** kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər:

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 iyun 2019-cu il saat 11:00-da** Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC Abşeron rayonu ərazisində torpaq sahələrinin suvarma sisteminin və Xaçmaz rayonunun Müqtədir qəsəbəsi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması üzrə

# *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1:** Abşeron rayonu ərazisində torpaq sahələrinin suvarma sisteminin xarici elektrik təchizatı işlərinin satın alınması - **400 manat**

**LOT-2:** Xaçmaz rayonunun Müqtədir qəsəbəsi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93; daxili (22-83))

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 iyun 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **25 iyun 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 iyun 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC müxtəlif işlərin satın alınması üzrə

# *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin struktur bölmələrində havalandırma, santexnika, istilik sistemi, işıqlandırma və s. işlərin satın alınması.

**LOT-2.** "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" elektrik deposu ərazisində tikanlı məftildən, metal profildən xüsusi tipli mühafizə hasarının və 17, 24, 40 saylı şaxtaların üzərində metal konstruksiyadan ventilyasiya köşklərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması.

**LOT-3.** "Bakı Metropoliteni" QSC-nin "B03" stansiyasında 35 kv-luq paylayıcı qurğu binasında fasadın şüşə və kompozit material ilə üzlənməsi işlərinin satın alınması.

**LOT-4.** "Bakı Metropoliteni" QSC-nin müxtəlif obyektlərində asfalt beton təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov; telefon: 490-00-91) ala bilərlər.

**İştirak haqqı**
I LOT üzrə - 200 manat
II LOT üzrə - 250 manat
III LOT üzrə - 250 manat
IV LOT üzrə - 200 manat

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *metropolitendə iş təcrübəsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 iyun 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 iyun 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Famil Bağıyev və "Orbita MTK"nın kollektivi Rafiq Şıxəmirova **ANASININ** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9054
Sifariş 1536
Qiyməti 40 qəpik